# DÜŞÜNƏN İNSAN


Elmi-texnoloji xəbərlər 4

İslam dünyasında keçən ay 6

Quranda günəşlə bağlı bildirilən möcüzələr 8

Bir ayə, bir açıqlama 19

Metamorfoz bir yaradılış dəlilidir 20

İslam dini incəsənət və estetika ilə sıx bağlıdır 22

Hüceyrənin içindəki ən əsas detal: zülal 29

Yalan danışmaq şeytanın xüsusiyyətidir 34

Uçan canlıların üstün dizaynı və aeronavtika texnologiyası 38

İslamı sevdirmək üçün qurana uyğun təbliğ edilməlidir 48

Fosillər təkamülü təkzib edir 52

Bunları bilirdinizmi? 58


















DÜŞÜNƏN İNSAN
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Noyabr 2013; № 27
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.
Reyestr № 3418

Təsisçi və redaktor: Ziya Kazımov
Telefon: (077) 381 61 91
E-mail:info@dusuneninsan.az
www.dusuneninsan.az
Poçt ünvanı: AZ1000 abonent qutusu 35

Çapa imzalanma tarixi: 29.10.2013
Şərq-Qərb mətbəəsində çap edilib.
Tiraj: 600
Qiyməti: 2 manat


Göyləri və yeri icad edən
Odur. Bir işin yaranmasını
istədiyi zaman,
ona yalnız: “Ol !” –deyər,
o da olar.
(Bəqərə surəsi, 117)

Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayırlar. Bu, bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir.

Təsadüfi deyildir ki, Azərbaycan bu gün dünyada milli və dini dözümlülük məsələlərində çox önəmli ölkəyə çevrilmişdir.

Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biridir.

**İlham Əliyev**



# Elmi-texnoloji Xəbərlər





## YAŞIL ENERJİDƏ YOSUN DÖVRÜ BAŞLADI

Almaniyanın Hamburq şəhərində dəniz yosunu ilə enerji hasil edən bina inşa edilib. Şüşə lövhələrdən təşkil olunmuş ağıllı bina şüşələrin içindəki mayenin qaynadılması ilə 15 mənzili isidəcək enerji ehtiva edir. Lövhələrin içindəki yanacaq isə tamamilə biolojidir – dəniz yosunu və planktonlardan ibarətdir.

Layihənin rəhbəri Martin Kerner sistemi belə xülasələyib:

"Lövhələrdə isidilən yosun həlimindən çıxan qaz binanın içindəki borularda dolaşır və istər evlərin isinmə ehtiyacını, istərsə də isti suyunu reaktor vasitəsilə təmin edir".

Ekoloji binanın sakinlərindən Laura akvarium mənzərəli balkonunda jurnalistlərin suallarını cavablayıb. Laura böyük ölçüdə enerjiyə qənaət etdiklərini vurğulayıb.

Binanın memarı Dietmar Valbert isə bu texnologiyanı "Bu, gələcəyin dünyasıdır. 30 il əvvəl verdiyimiz bütün sualların cavabıdır" sözləri ilə izah edib.

Minerallarla çox zəngin olan dəniz yosunu həlimi gələcəyin əsas enerji mənbələrindən biri ola bilər.



## AFRİKADA 40 MİLYONA KİFAYƏT EDƏCƏK QƏDƏR SU TAPILIB

Elmi tədqiqatlar nəticəsində dünyanın ən quraq bölgələrindən birində 40 milyon insana çatacaq qədər yeraltı su mənbəyi tapılıb. Keniyanın Turkana bölgəsində 250 trilyon litr yeraltı su mənbəyi olduğu müəyyən edilib.

Bəşəriyyətin faydalanması üçün dünyanın gizli təbii mənbələrini kəşf etməyi qarşısına məqsəd qoyan "Radar Technologies International" (RTI) təşkilatı Keniyada böyük kəşfə imza atıb.

Keniya hökumətindən icazə alaraq radar görüntüləmə metodu ilə tədqiqatlar aparan RTI Keniyanın ən quraq bölgələrindən olan Turkananın dərinliklərində böyük yeraltı su mənbəyi kəşf edib.

36 min km$^2$ sahəni əhatə edən su mənbəyinin müntəzəm çıxarıldığı təqdirdə, 40 milyon insana çatacağı bildirilib.

RTI kəşf edilən yeraltı suyun bir qisminin səthə çox yaxın təbəqələrdə olduğunu və su anbarlarında toplandığı təqdirdə, hər gün 3.45 trilyon su əldə ediləcəyini bildirib.



RTI-nin internet səhifəsindən verdiyi açıqlamaya əsasən, kəşf edilən su quraqlıq bölgədə çoxlu sayda insana yardım edə bilər. Turkanada bu gün 120 min insanın yaşadığı Kakuma qaçqın düşərgəsi yerləşir.

"Newscientist" saytına müsahibə verən Britaniya Geoloji Tədqiqat Mərkəzindən Alan Makdonald: "Kenya hökuməti istifadədən əvvəl suyun keyfiyyətini təhlil etməlidir", - deyib. Bundan əlavə, Makdonald su anbarlarından suyun çox sürətlə geri çəkilməməsi və su ilə dolmaması üçün lazımi zamanın dəqiq hesablanmasının zəruri olduğuna diqqət çəkib.




## Azərbaycanda dini məbədlərin istilik sisteminə təbii qaz təmənnasız veriləcək

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, ölkə ərazisində fəaliyyət göstərən bütün məscidlərin və digər konfessiyalara mənsub dini məbədlərin istilik sisteminə təbii qazın təmənnasız verilməsi qərara alınıb. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) rəsmi saytında məlumat verilmişdir.



## Səudiyyə Ərəbistanının kralı Abdullah İslam dünyasını məzhəb ayrı-seçkiliklərindən əl çəkərək birləşməyə çağırıb

Səudiyyə Ərəbistanının kralı Abdullah İslam dünyasını məzhəb ayrı-seçkiliklərindən əl çəkərək birləşməyə çağırıb. “Bir-birimizi daha yaxşı anlamalı və birləşməliyik. Fərqlərimizin İslam ümmətinə mənfi təsir etməsinə icazə verməməliyik”, - qeyd edib.

Türkiyə Cümhuriyyətinin prezidenti Abdullah Gül Kral Abdullah ilə görüşüb. Türkiyəyə və türk xalqına dərin sevgi və məhəbbət bəslədiyini vurğulayan Kral Türkiyə və Səudiyyə Ərəbistanının əlaqələrinin getdikcə güclənəcəyini qeyd edib.



# Keçən Ay

## Sloveniyanın baş naziri Bratuşek: “İslamsız Avropa natamamdır”

Sloveniyanın paytaxtı Lyüblyanada inşa ediləcək ilk məscidin təməlqoyma mərasimində baş nazir Alenka Bratuşek də iştirak edib. Bratuşek bu mərasimdə söylədiyi nitqində: “Avropa İslam sayəsində müxtəlif sivilizasiyaların birləşdiyi qitə olub. İslamsız Avropa indi olduğu kimi müxtəlifliklərlə dolu coğrafiya, müxtəlif sivilizasiyaların qovuşduğu qitə olmazdı. Dinlərarası həmrəylik uzunmüddətli sabitliyə zəmanətdir”, - deyib.

Məscidin tikilməsini müsəlmanların 40 ildir gözlədiyini xatırladan Bratuşek: “Nəhayət ağıl qalib gəldi. Bu gün Sloveniyadakı İslam Birliyi üçün böyük gündür. Bu gün bütün Sloveniya üçün böyük gündür. Çünki hər dini icmanın ən təbii haqqı ibadətxanaya malik olmaqdır”, - deyib.
Mərasimdə baş nazir Bratuşeklə yanaşı, Sloveniyanın keçmiş prezidenti Danilo Türk, Bosniya və Herseqovina Üçlü Dövlət Rəhbərliyi Şurasının bosnyak təmsilçisi Bakir İzzetbegoviç, Qətər İslam İşləri və Vəqfləri rəhbəri Qeyt Mübarək əl-Kuvəri, Bosniya və Herseqovina rəisul-üləması Hüseyn Kavazoviç, Sloveniya müftüsü Necad Qrabus və Lyüblyana bələdiyyə rəhbəri Zoran Yankoviçlə yanaşı, sayı 10.000-ə çatan vətəndaş iştirak edib. Keçmiş prezident Türk söylədiyi nitqdə mərasimdə çoxlu sayda müsəlmanların iştirak etdiyinə görə çox sevindiyini ifadə edib.



## Madonna Quran-i kərimi oxuyub

Amerikalı məşhur müğənni Madonna müsəlmanların müqəddəs kitabı Quran-i kərimi oxuyubmuş. Bu barədə müğənni “Harper’s Bazaar” jurnalına verdiyi müsahibədə deyib. Müsahibədə səmimi açıqlamalar verən müğənni bütün müqəddəs kitabları oxumanın əhəmiyyətli olduğunu deyib.

“Hesab edirəm ki, bütün müqəddəs kitabları oxumaq əhəmiyyətlidir. Dostum Yamanın (Türk rəqqas Yaman Okur) həmişə dediyi kimi yaxşı bir müsəlman eyni zamanda yaxşı yəhudidir və yaxşı bir yəhudi eyni zamanda yaxşı bir xristiandır. Bu cəsarətli çıxışı qətiyyətlə dəstəkləyirəm”.

Qeyd edək ki, Yaman Okur Türkiyə mətbuatına verdiyi müsahibədə bir dəfə konsertdən əvvəl dua edərkən Madonnanın onu gördüyünü və bundan təsirləndiyini demişdi. Okur həmçinin Madonnaya İslam dini barədə məlumatlar verdiyini və ona Quran hədiyyə etdiyini bildirmişdi.




Düşünən İnsan, Noyabr 2013



# QURANDA GÜNƏŞLƏ BAĞLI BİLDİRİLƏN MÖCÜZƏLƏR

Quranın Allah`ın sözü olduğunu sübut edən möcüzəvi xüsusiyyətlərdən biri Quranın nazil edildiyi dövrdə bilinməsi mümkün olmayan elmi həqiqətlərin Quranda xəbər verilməsidir. Günəş haqqında Quranda diqqət çəkilən faktlar Quranın bu möcüzəvi xüsusiyyətlərindən biridir.

## Günəş mərkəzli sistem

**(Allah) göyləri və yeri haqq olaraq yaratdı. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür. O, günəşi və ayı ram etdi. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. O, qüdrətlidir, bağışlayandır. (Zumər surəsi, 5)**

Ayədə gecə ilə gündüzün əmələ gəlməsi üçün Yerin hərəkəti əmmamənin sarılması kimi "yuvarlaq cismi bürüyüb örtmək" mənasını verən "təkvir" feilindən törəmiş "yükəvviru" sözü ilə tərif edilir. Bu söz yerin kürəvi forması ilə yanaşı, Günəşin ətrafındakı hərəkətini də doğru ifadə edir. Yerin kürəvi forması və öz oxu ətrafında fırlanmasına görə, Günəş həmişə Yerin bir tərəfini işıqlandırır, digər tərəfi isə kölgədə qalır. Kölgədə qalan tərəf gecə qaranlıqla örtülür və sonra Yerin Günəşə tərəf çevrilməsi ilə gündüz gecəni əvəz edir. "Yasin" surəsində isə Günəşlə Ayın mövqeyi belə bildirilir:

**Günəş də özü üçün müəyyən olunmuş yerdə axıb gedir. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allah`ın təqdiridir. Ay üçün də mənzillər müəyyən etmişik. Nəhayət, o (tədricən) dönüb xurma ağacının qurumuş budağı kimi (əyri) olur. Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri (öz) orbiti (ilə) üzüb gedir. (Yasin surəsi, 38-40)**

Yasin surəsinin 40-cı ayəsində Günəşlə Ayın hərəkətləri "üzüb getmək, axmaq, gəzmək" mənalarını verən ərəbcə "yəsbahunə" sözü ilə tərif edilir. Bu söz insanın təkbaşına etdiyi hərəkət mənasını verir. Bu hərəkəti tətbiq edən şəxsin başqa birisinin müdaxiləsi olmadan təkbaşına işinə davam etməsi deməkdir. Yuxarıdakı ayələrdə də Günəşin heç bir göy cisminə bağlı



olmayan kainatdakı müstəqil hərəkətinə diqqət çəkilə bilər (doğrusunu Allah bilir). Günəşin hərəkətini gözlərimizlə görə və ya izləyə bilmərik. Bu hərəkəti müəyyən etmək ancaq xüsusi texnoloji alətlərin köməyi ilə mümkündür. Günəş öz oxu ətrafında 26 günlük dövr etməklə yanaşı, "Yasin" surəsinin 39-cu ayəsində bildirildiyi şəkildə, kosmosda öz orbitində də dayanmadan hərəkət edir.

Ayədə, eyni zamanda, Günəşin Aya çatmasına izin verilmədiyi bildirilir, beləcə, Quranda kosmoloqların terminologiyası ilə Günəşlə Ayın eyni cisim ətrafında fırlanmadıqları xəbər verilir. Habelə, ayədə gecə ilə gündüzü əmələ gətirən hərəkətlə Günəş və Ayın hərəkətində heç bir əlaqə olmadığı açıqlanır (doğrusunu Allah bilir). XVI əsrə qədər elm dünyası Yerin kainatın mərkəzində olduğunu düşünürdü. Hətta bu fikir qədim yunanlarda geo (Yer) və centron (mərkəz) sözlərinin birləşməsindən ibarət "geosentrik model" adlandırılırdı. Bu inanc məşhur astronom Nikolay Kopernikin 1543-cü ildə nəşr etdirdiyi "Göy kürələrinin fırlanması haqqında" (De Revolutionibus Orbium Coelestium) adlı əsərində Yerin və digər planetlərin Günəşin ətrafında fırlanması fikrini ortaya atması ilə təkzib edildi.

Lakin 1610-cu ildə Qalileo Qalileyin teleskopla müşahidələri nəticəsində Yerin, əslində, Günəşin ətrafında fırlandığı elmi cəhətdən əsaslandırıldı. Bu dövrə qədər Günəşin Yerin ətrafında fırlandığına inandıqlarına görə, dövrün alimlərinin çoxu Kopernikin nəzəriyyəsini qəbul etməmişdilər. Məşhur astronom İohan Keplerin planetlərin hərəkətlərini açıqlayan fikirləri ilə XVI və XVII əsrlərdə heliosentrik kainat modeli qəbul edildi. "Helios" (günəş) və "centron" (mərkəz) sözlərinin birləşməsindən əmələ gələn bu modeldə kainatın mərkəzində Yer deyil, Günəş dayanır. Digər göy cisimləri Günəşin ətrafında hərəkət edirlər. Halbuki, Quranda bu fakt bundan 14 əsr əvvəl bildirilib.

Antik yunan kosmoloqlarından Klaudio Ptolomey kainatın mərkəzinin Yer olduğunu deyərək əsrlərlə qəbul edilmiş yer-mərkəzli (geosentrik) kainat fikirlərinə mənbə təşkil etmişdi. Ona görə, Quranın nazil edildiyi dövrdə gecə-gündüzün əmələ gəlməsini Günəşin hərəkətləri ilə açıqlayan yer-mərkəzli nəzəriyyənin doğru olmadığı bilinmirdi. Əksinə, bütün ulduz və planetlərin Yerin ətrafında fırlandığı qəbul edilirdi. Dövrün yanlış elmi düşüncəsinə baxmayaraq, Quranda müasir elmi faktlarla uyğunluq təşkil edən bir çox ifadə var. "Şəms" surəsində belə bildirilir:

**And olsun günəşə və onun saçdığı şəfəqə! And olsun (günəşin) ardınca çıxan aya; and olsun onu (günəşi) parlaq edən gündüzə; and olsun onu (günəşi) örtən gecəyə; (Şəms surəsi, 1-4)**

Düşünən İnsan, Noyabr 2013



**Gördüyünüz göyləri dirəksiz yüksəldən, sonra da ərşə ucalan, müəyyən vaxta qədər hərəkət edən günəşi və ayı (əmrinə) tabe edən Allah`dır. O, işləri yoluna qoyur və ayələrini izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız.**
**(Rəd surəsi, 2)**



**Quranda bu mövzu ilə bağlı digər ayələrdən bəziləri belədir:**

Gördüyünüz göyləri diræksiz yüksəldən, sonra da ərşə ucalan, müəyyən vaxta qədər hərəkət edən günəşi və ayı (əmrinə) tabe edən Allah`dır. O, işləri yoluna qoyur və ayələrini izah edir ki, bəlkə, Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız. (Rəd surəsi, 2)

O, gecəni gündüzə, gündüzü də gecəyə qatır. O, günəşi və ayı ram etmişdir. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. Bu, sizin Rəbbiniz olan Allah`dır. Mülk Onundur. Sizin Ondan başqa ibadət etdikləriniz xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. (Fatir surəsi, 13)

(Allah) göyləri və yeri haqq olaraq yaratdı. O, gecəni gündüzə, gündüzü də gecəyə qatar. O, günəşi və ayı ram etdi. Onların hər biri müəyyən bir müddətədək hərəkət edər. Agah olun ki, O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır! ( Zumər surəsi, 5)




Yuxarıdakı ayələrdə bildirildiyi kimi, gündüz – Günəşin parlaqlığı – Yerin hərəkəti ilə meydana gəlir. Gecə ilə gündüzü əmələ gətirən hərəkət Günəşin hərəkəti deyil. Başqa sözlə, gecə ilə gündüzə nisbətən Günəş sabitdir. Quranda bildirilənlər Yerin sabit olub Günəşin onun ətrafında fırlandığını müdafiə edənlərin iddialarını əsassız etmişdir. Quranın zaman və məkandan asılı olmayan, bütün elmlərin sahibi olan Rəbbimizin dərgahından endirildiyi açıq-aşkar həqiqətdir:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir söz deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

**Günəş müəyyən müddətdən sonra sönəcək**

**Günəş də özü üçün müəyyən olunmuş yerə axıb gedir. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allah`ın təqdiridir. (Yasin surəsi, 38)**

Günəşin səthində təqribən 4 milyard ildir fasiləsiz baş verən kimyəvi reaksiyalar nəticəsində günəş işığı mütəmadi əmələ gəlir. Gələcəkdə, Allah`ın izni ilə, müəyyən bir andan sonra bu reaksiyalar sona çatacaq, günəş enerjisini itirərək tamamilə sönəcək. Buna əsasən, yuxarıdakı ayədə də Günəşin enerjisinin bir gün sona çatacağına işarə edilə bilər (doğrusunu Allah bilir).

Ayədəki "mustakarrin" sözü müəyyən edilmiş yer və ya zaman mənasını verir. "Axıb gedir" şəklində tərcümə edilmiş "təcri" sözü isə "hərəkət edir, tələsir, dövr edir, yol tutur, axır" mənalarını verir. Sözlərin mənalarından Günəşin müəyyən dayanacaq nöqtəsi olan məkana və zamana



doğru hərəkət etdiyini, ancaq bu hərəkətin əvvəlcədən müəyyən edilmiş vaxta qədər davam edəcəyi başa düşülür. Qiyamət günü ilə bağlı ayələrdəki **"Günəş sönəcəyi zaman" (Təkvir surəsi, 1)** ifadəsi ilə belə bir zamanın gələcəyi bildirilir. Həmin vaxt isə Allah dərgahında bəllidir.

Ayədə Allah`ın "təqdiri" şəklində tərcümə edilmiş "təqdiyru" sözü isə "təyin etmək, qədərini (müqəddəratını, taleyini) müəyyən etmək, hökm etmək, ölçüb-biçmək, nizamlamaq, ölçü ilə etmək" mənalarını verir. "Yasin" surəsinin 38-ci ayəsindəki bu ifadə ilə də Günəşin ömrünün Allah`ın təyin etdiyi müddətdən ibarət olduğu bildirilir.

Yuxarıdakı ayələrdə işlənən "musəmmən" sözü ilə də Günəşin hərəkət müddətinin müəyyən olduğu bildirilir. Günəşin sonu ilə bağlı elmi mənbələrdə Günəşin hər saniyə 4 milyon ton maddə yandıraraq enerjiyə çevirdiyi, bu yanacaq qurtardıqda Günəşin ömrünün sona çatacağı tərif edilir.

Günəşdəki hidrogen nüvələrinin termonüvə reaksiyası ilə birləşərək heliuma çevrilməsi nəticəsində Günəşdən gələn istilik və işıq əmələ gəlir. Ona görə, Günəşin enerjisi – eləcə də ömrü bu yanacağın qurtarması ilə sona çatacaq (doğrusunu Allah bilir). BBC Xəbər Mərkəzinin elmi guşəsində "Günəşin ölümü" başlıqlı xəbərdə belə bildirilir:

"... Günəş yavaş-yavaş öləcək. Bir ulduzun nüvəsi içinə çökərkən tədricən tərkibindəki helium atomlarını alışdıraraq istilik əldə edir. Helium atomları termonüvə reaksiyası ilə birləşərək karbon əmələ gətirirlər. Helium mənbələri tükəndikdə nüvə yenidən çökəcək və atmosferi partlayacaq. Günəş nüvəsini üçüncü dəfə alışdıracaq qədər böyük kütləyə malik deyil. Ona görə, genişlənməkdə davam edəcək və atmosferini bir sıra ardıcıl partlayış nəticəsində itirəcək... Quruyan nüvəni, nəticədə, ağ cırtdan əvəz edəcək. Karbon və oksigendən meydana gələn, Yer kürəsi böyüklüyündə kürəvi almaz kimidir. Bundan sonra Günəş tədricən solacaq, işığı getdikdə qaralacaq və nəhayət tamamilə sönəcək".

Elm adamları Günəşin quruluşunu və içində baş verən prosesləri ancaq son əsrlərdə kəşf ediblər. Bundan əvvəl, Günəşin enerjisini haradan aldığı, Günəşin necə işıq və istilik yaydığı elmə məlum deyildi. Quranda 14 əsr əvvəl bu qədər nəhəng kütlənin enerjisinin tükənərək bir gün sona çatacağının bildirilməsi üstün bir elmin varlığını göstərir. Hər şeyi ehtiva edən bu elm uca Rəbbimizin elmidir. Quranda bir ayədə belə bildirilir:

**... Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Məgər düşünüb ibrət almayacaqsınız? (Ənam surəsi, 80)**

Düşünən İnsan, Noyabr 2013

www.kommunizmtehlukesi.com

# TERRORUN ARTMASINDA DİNSİZ İDEOLOGİYALARIN ROLU

*Hər hansı bir xəstəliyin müalicəsində təsirli nəticə əldə etmək üçün diaqnozun doğru qoyulması çox əhəmiyyətlidir. Diaqnozdan sonra başlayan müalicə isə xəstəlik sağalana kimi həssas şəkildə və səbirlə davam etdirilməlidir. Əks halda, xəstəlik get-gedə daha da ağırlaşar. Eyni anlayış sosial xəstəliklərə də aiddir. Hər hansı bir sosial problemlə mübarizə apararkən ilk öncə o problemin başlanğıc səbəbləri təyin olunmalıdır.*

*Əsrimizin ən əhəmiyyətli sosial problemlərindən biri olan terrorizm üçün də səbəblər çox vaxt konkret hadisələrdə axtarılır, mübarizə də bu səthi hədəflərə istiqamətlənmiş şəkildə planlaşdırılır. Buna görə də terrorizmlə mübarizədə əsaslı nəticə əldə etmək mümkün olmur. Dünyanın terrordan xilas olması üçün əvvəl terrorun mənbəyi müəyyən edilməli və bu mənbə tamamilə aradan qaldırılmalıdır.*



## Terroristlərin məntiqi

Terroru yalnız hərbi yolla həll etmək mümkün deyil. Çünki bu, daha çox şiddətə səbəb olur və qan tökülməsi davam edir. Terrorla mübarizəyə başlayarkən terroristin həyata və insana baxışını, şiddəti hansı yollarla qanunilәşdirdiyini çox yaxşı başa düşmək və bunlarla mübarizə aparmaq lazımdır.

Terroristlər yalnız şiddət yolu ilə müvəffəqiyyətə nail olacaqlarına inanırlar. Ətraflarındakı insanların onlardan qorxmasını istəyir və bu qorxunu meydana gətirmək üçün insafsız, mərhəmətsiz, təcavüzkar xarakterə bürünürlər. Öz düşüncəsinə qarşı çıxan hər insan onun düşmənidir. Düşmənini isə insan olaraq deyil, aradan qaldırılmalı olan hədəf kimi görürlər. "Journal Sentinel" qəzetinin yazarlarından olan psixoterapevt Filipp Çard terroristlərin müdafiəsiz insanlara qarşı vəhşilik etmələrini necə qanunilәşdirdiklərini izah etdiyi "Terrorists view us as targets, not as humans" (Terroristlər bizi insan olaraq deyil, hədəf olaraq görürlər) başlıqlı məqaləsində terroristin məntiqini bu şəkildə təsvir edir:
Tədqiqatçılar terroristlərin davranışlarının təməlində yatan psixoloji səbəbləri araşdırdılar. Bunlardan ən çox diqqəti cəlb edəni qurbanlarını əşya, obyekt və qurban siyahısına əlavə olunacaq insan kimi görmə qabiliyyətləridir.

Terroristlərə görə hədəfləri kifayət qədər müqəddəs və ucadır. Terroristlərin əsas hədəfləri insanlar deyil, nəticələrdir. Onlar üçün əhəmiyyətli olan qırğın deyil, qırğının təsiridir. Terroristlər bir qrup insanın, ya da bütün bir cəmiyyətin ümidlərini, şövqünü və həyat şəklini öldürmək istəyirlər. Terroristlər insanları öldürürlər, çünki bunu məqsədlərinə çatmağın ən sürətli və birbaşa yolu olduğuna inanırlar.

Filipp Çardın diqqət çəkdiyi mövzu çox əhəmiyyətlidir. Terroristlər qarşılarındakı insanların ölümlərindən zərrə qədər də kədərlənmir, əksinə, nə qədər çox günahsız insan ölsə, o qədər müvəffəqiyyətli olduqlarını düşünür və bundan həzz alırlar. Günahsız insanları insafsız şəkildə güllələyə bilir, kiçik uşaqların üzərinə bomba ata bilirlər. Qan tökmək onlar üçün zövq halına gəlir. İnsanlıqdan çıxıb gözü dönmüş vəhşi heyvana çevrilirlər. Aralarında azacıq mərhəmət hissi göstərən olsa, onu dərhal xain elan edirlər.

Terroristlərin yuxarıda qısa şəkildə izah etdiyimiz şiddəti dəstəkləyən məntiqləri



materialist və darvinist düşüncədən qaynaqlanır. İnsanı heyvan olaraq görən, canlıların inkişafını təbiətdəki həyat mübarizəsinə bağlayan, bu mübarizəni güclü olanların qazanacağı və zəiflərin əzilərək yox olacaqlarını müdafiə edən darvinizm terroristin xəstə məntiqinin təməlini təşkil edir.

## Terrorist ideologiya darvinizm üzərində qurulmuşdur

Darvinizmə görə təbiətdə mərhəmətsiz həyat mübarizəsi, daimi qarşıdurma var. Güclülər hər zaman gücsüzləri əzir və inkişaf da bunun hesabına mümkün olur. Bu ideologiyanın qurucusu Darvin bu həqiqətdən kənar "həyat mübarizəsi" şüarını "mədəni irqlər" (avropalı ağlar) və "aşağı irqlər" (asiyalı və ya afrikalı irqlər) ifadələri ilə irqçi məntiqə əsaslandırmış, dünyadakı qarşıdurmaların, müharibələrin təməlini meydana gətirmişdir. Darvinin ortaya atdığı "güclülərin həyatda qalması" düşüncəsi insanlığı kinə, düşmənçiliyə, qarşıdurmaya, müharibəyə sövq edən bir çox ideologiyaya zəmin hazırlamışdır.

Darvinizm insanlara yalnız inkişaf etmiş bir növ heyvan olduqları yalanını deyil, eyni zamanda, təsadüflərin əsəri olduqlarını, yəni bir yaradıcılarının olmadığı yalanını da təlqin edir. Bu təlqinləri məktəblərindəki dərs kitablarından, izlədikləri filmlərdən, oxuduqları kitablardan mənimsəyən insanlar özlərini məsuliyyətsiz zənn edirlər. Bu cür qəddar fikirlər aşılanan insanlar XX əsri şiddət əsrinə çevirmiş, darvinizmə əsaslanaraq qarşıdurma və müharibəni dəstəkləmiş, hətta bunu ən əhəmiyyətli üsul kimi mənimsəmişlər. Dialektik qarşıdurma kommunist ideoloqların qətliam törətmələrinə şərait yaratmış, XX əsrdə kommunist terror nəticəsində təxminən 120 milyon insan qətl edilmişdir. Darvinizmin irqlər arası həyat mübarizəsi və təbii seçmə iddiaları isə nasizmin təməlini meydana gətirmişdir. Bu mübarizə dünyasında yalnız üstün irqlərin həyatda qalacağını müdafiə edən Adolf Hitler isə bütün dünyada qətliam törətmişdir. Nasizmin işğal və müharibə siyasəti nəticəsində başlayan II Dünya Müharibəsində təxminən 55 milyon insan həyatını itirmişdir. Tarix bizə darvinizmin insanların şüur altına yeritdiyi "insan mübarizə aparan heyvandır" təlqininin insanlar üzərində çox böyük təxribat meydana gətirdiyini göstərmişdir



və dövrümüzdəki terror hadisələri də bu həqiqəti sübut edir. Şiddəti, qarşıdurmanı, müharibəni dəstəkləyən, ancaq güclü olanın həyatda qalacağını iddia edən azğın darvinist şüarlar artıq dəstəklənməməlidir. Çünki darvinizmin ortadan qaldırılması o deməkdir ki, artıq şiddəti dəstəkləyən ideologiyalar da qüvvədən düşmüşdür.

Yer üzündəki insanların böyük əksəriyyətinin inandığı üç İlahi din də (xristianlıq, yəhudilik və İslam) mübarizəyə qarşıdır. Hər üç İlahi dinin də məqsədi yer üzündə sülh və rahatlığı təmin etmək, günahsız insanların öldürülməsinə, zülm və işgəncə görməsinə qarşı çıxmaqdır. Mübarizə və şiddət Allah'ın insanlar üçün təyin etmiş olduğu əxlaqa zidd və bəyənilməyən anlayışlar kimi qəbul edilir. Halbuki, darvinizm mübarizə və şiddəti mütləq lazım olan təbii, doğru və qanuni anlayışlar olaraq görür və göstərir. Buna görə də dünyamızı əhatə edən terror bəlasının mənşəyi dinsizlikdə, dinsizliyin əsrimizdəki qarşılığı olan darvinizm və materializmdədir.

Hal-hazırda, dünyanın bütün ölkələrindəki məktəblərdə darvinizmin tədris edildiyini düşünsək, yeni terrorist gənclərin yetişməsini də nəzərə almalıyıq. Bunun üçün təsadüflər nəticəsində meydana gəlmiş, ataları heyvan olan, Allah'a qarşı məsuliyyət daşımayan, başıboş varlıqlar olduqları, ancaq mübarizə və müharibə ilə üstün gələrək həyatda qala biləcəkləri öyrədilən gənclərin bu təlqinlərdən uzaq tutulmaları çox vacibdir. Çünki bu cür səhv fikirlərlə böyüyən gənclər davakar, mərhəmətsiz, eqoist, şiddətə meyilli olacaqlar.

Bu gənclər anarxiya tərəfdarıdırlar və terrorist ideologiyaların təlqinlərinə də asanlıqla qapıla bilirlər, daha sonra isə gözlərini qırpmadan kiçik uşaqları qətl edəcək, öz qardaşını belə öldürəcək, hər cür vicdan və ağıla zidd hərəkəti edəcək qədər zalımlaşa bilirlər. Son əsrdə dünyanı alt-üst edən irqçi və faşist terror qrupları bu təhsil sisteminin məhsullarıdır.

Buna görə də əvvəlcə terroristin məntiqinin səhv olduğu bütün dəlillərlə sübut edilməlidir. Darvinizmi müdafiə edənlərin və buna inananların hamısının yanıldığı ən təsirli şəkildə insanlara izah edilməlidir. İnsan başıboş və məsuliyyətsiz deyil. Onu yaradan, hər anını müşahidə edən, düşüncələrini bilən və öldükdən sonra etdiklərinin qarşılığını verən bir yaradıcımız var. Rəbbimiz insanı heyvanlardan fərqli olaraq ruh, ağıl, iradə, şüur və mühakimə qabiliyyəti ilə yaratmışdır. Məsələn, bir hadisə qarşısında çox əsəbiləşən, iradəsi zəif insan özünü və qarşısındakı insanı heyvan



kimi görsə, ona heç düşünmədən zərər verə bilər, mərhəmətsiz şəkildə davrana bilər. Qarşısındakının kiçik uşaq, müdafiəsiz insan olmasının heç fərqi yoxdur. Ancaq Allah'ın özünə verdiyi ruhu daşıdığını bilən, ağıl və vicdan sahibi insan isə hər cür vəziyyətdə əsəblərinə hakim olar, şüuru və vicdanı hər an açıq olar. Allah'a hesab verə bilməyəcəyi ən kiçik bir hərəkəti belə etməz.

Allah Quranda hər insanın nəfsinin olduğunu və ona günahlardan, pis əməllərdən çəkinməsini ilham etdiyini bildirir (Şəms surəsi, 7-10). Buna görə də bəzi insanların əxlaqi pozuntularının, cinayət törətmələrinin arxasındakı səbəb xəyali təkamül müddəti deyil. Bunun səbəbi Allah'a iman etməmələri, etdiklərinin hesabını Allah'a verməyəcəklərini zənn etmələri və bu səbəbdən də çəkinməmələridir. Bu gün bütün dünyada meydana gələn müharibələrin, mərhəmətsiz hücumların, insanların aclığa, səfalətə tərk edilmələrinin, ədalətsizliyin, mərhəmətsizliyin ardınakı səbəb budur. İnsanları heyvan olaraq görənlər, heyvanlar kimi həyat mübarizəsi içində olduqlarını zənn edənlər, Allah'ı və axirəti unudan və unutduranlar heç bir zalımlıqda sərhəd tanımazlar.

Hər insan Allah'ın özünə üflədiyi ruhu daşıyır və özünü yoxdan var edən Yaradıcımıza qarşı məsuldur. Allah Quranda məsuliyyətsiz olduqlarını zənn edənlərə yaradılışlarını və ölümdən sonra təkrar diriləcəklərini belə xatırladır:

**Məgər insan elə güman edir ki, o, başlı-başına buraxılacaq?! Məgər o, tökülən bir qətrə nütfə deyildimi?! Sonra laxtalanmış qan oldu və (Allah) onu yaradıb surət verdi. Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cift yaratdı. Elə isə O Allah ölüləri diriltməyə qadir deyildirmi?! (Qiyamət surəsi, 36-40)**

Bunun üçün insana heyvan olduğunu, yalnız fiziki olaraq güclü olanların həyatlarını davam etdirə biləcəklərini, dünyanın mübarizə meydanı olduğunu öyrədən bu darvinist ideologiyanın ortadan qalxması terrorizmin təməl dayaqlarından birini itirməsi mənasını verir. Bununla birlikdə insanları terror bəlasından uzaq tutmanın ən əhəmiyyətli yolu mənəvi təhsildir. Cəmiyyətlərin daimi sülhə qovuşa bilmələri ancaq insanların gözəl əxlaqı öyrənmələri və bu əxlaqı yaşamaları ilə mümkündür. Bundan kənar cəmiyyətin həyatını tənzimləmək üçün qoyulan qaydalar və tədbirlər bir yerə qədər təsir edər, terror bəlasını tam mənası ilə ortadan qaldırmaz.



# Bir ayə, bir açıqlama

**İnsanlar yalnız: "İman gətirdik!" – deməleri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Ənkəbut surəsi, 2)**

Bu ayədə Allah iman gətirdiyini deyən qullarını dünya həyatında imtahan edəcəyini bildirir. Allah insanlardan səmimi iman istəyir. Bunu isə insan sadəcə inandığını deməklə əldə edə bilməz. İnsanın dünyadakı vəzifəsi uca Allah`a və axirətə iman gətirmək, Quranda bildirildiyi kimi gözəl əxlaqlı olmaq, Allah`ın hədlərini qorumaq və Onun rizasını qazanmağa çalışmaqdır. Odur ki, hər insan Allah`a və Onun dininə həqiqətən inandığını, şeytanın onu azdırmaq səylərinə baxmayaraq, doğru yoldan dönməyəcəyini göstərməlidir. Habelə inkarçılara tabe olmayacağını, nəfsinin istəklərini Allah`ın rizasından üstün tutmayacağını da sübut etməlidir. Bunu isə qarşılaşdığı hadisələrə münasibəti ilə göstərər. Allah din əxlaqı ilə yaşamağı qəbul edən insanın qarşısına səbir tələb edən bəzi çətinliklər çıxarır, bu çətinliklərdə necə davranacağı ilə onu imtahan edir.

Ona görə, mömin başına gələn hər hadisəyə imtahan gözü ilə baxmalı, Allah`a təvəkkül etməli və Onun rizasına uyğun davranmalıdır. Allah Quranda möminləri qorxu, aclıq, mal, can və məhsul qıtlığı ilə imtahan edəcəyini bildirir (Bəqərə surəsi, 155).

Təkcə çətinliklər deyil, dünya həyatındakı nemətlər də Allah`ın imtahanıdır. Allah verdiyi hər nemətlə insanın Ona şükür edib-etməyəcəyini də sınayır. Nemətlərlə yanaşı, Allah insanın qarşısına bir çox hadisə çıxarır və qərar verməsini istəyir. Əlbəttə, başına gələn hadisələrin imtahan olduğunu dərk edən və Allah`ın rizasına uyğun şəkildə qərar verən möminlər bu imtahandan uğurla keçməyə və Allah`ın Quranda bildirdiyi kimi, cənnət həyatı ilə mükafatlanmağa ümid bəsləyirlər.

Dünyadakı imtahan mühitində möminlər vicdanlarının səsini dinləyib Allah`ın onları imtahan etdiyini qətiyyən unutmamalıdırlar. Səmimi qəlbdən Allah`a üz tutan bir insan qarşısına hər nə çətinlik çıxsa da, mütləq bir asanlıqla qarşılaşar və Allah`ın izni ilə doğrunu tapar. Bu imtahan dünyasının ən böyük sirlərindən biri iman gətirənlər üçün mütləq qazancla nəticələnməsidir. Ən böyük qazanclardan biri isə iman gətirənlərin bu imtahanlardakı gözəl əxlaqının, cəsarət və mətanətinin onların axirətdəki mükafatını və dərəcələrini artırmasıdır.



# Metamorfoz bir yaradılış dəlilidir

Metamorfozu təkamülə dəlil göstərməyə çalışanlar, əslində, təkamül nəzəriyyəsi və biologiya haqqında heç nə bilmirlər. Metamorfoz genetik informasiyada şifrlənmiş planlı dəyişiklikdir və təsadüfi dəyişiklik mənasında olan təkamül nəzəriyyəsi ilə heç bir əlaqəsi yoxdur. Əslində, reduksiya edilməz kompleks mərhələ olan metamorfoz təkamülü əsassız edən yaradılış dəlilidir.

Bəzi canlılar həyatlarının fərqli dövrlərində yaşadıqları mühitin şərtlərinə uyğunlaşmaq üçün fiziki dəyişikliklər keçirirlər. Həmin dəyişiklik mərhələsi biologiyada metamorfoz adlanır. Bu mərhələ biologiya və təkamülün iddiaları haqqında kifayət qədər məlumatı olmayanlar tərəfindən bəzən təkamül nəzəriyyəsinə dəlil göstərilir. Metamorfozu təkamülə dəlil kimi göstərən mənbələr mövzu haqqında məlumatsız insanları yanıltmağa istiqamətlənmiş səthi təbliğat kitabları və bəzi cahil şəxslərdir. Təkamül nəzəriyyəsinin qarşılaşdığı ziddiyyətləri bilən nüfuzlu təkamülçü elm adamları isə belə gülünc iddiaları gündəmə gətirməkdən çəkinirlər. Çünki bunun nə qədər axmaq iddia olduğunu bilirlər...

Kəpənək, ağcaqanad və arı kimi canlılar metamorfoz keçirən canlılardan bəziləridir. Həyatı suda başlayan, daha sonra quruda davam edən qurbağalar da metamorfoza bir nümunədir. Bu dəyişikliyin təkamüllə heç bir əlaqəsi yoxdur. Çünki təkamül nəzəriyyəsi canlılardakı dəyişikliyi təsadüfən baş verən mutasiyalarla izah etməyə çalışır.

Halbuki, metamorfoz təkamülün bu əsas iddiası ilə heç bir bənzərlik təşkil etməyən, təsadüf və mutasiya ilə əlaqəsi olmayan, əvvəldən planlanmış prosesdir. Metamorfozu reallaşdıran amil təsadüf deyil, canlıda

doğulduğu andan etibarən mövcud olan genetik informasiyadır. Məsələn, suda yaşayan qurbağanın genetik quruluşunda daha sonra quruda davam edəcək həyatı ilə bağlı məlumat mövcuddur. Ağcaqanadın da pup və yetkin hallarındakı quruluşu və funksiyaları ilə bağlı informasiya hələ sürfə mərhələsində ikən genetik quruluşunda var. Bu vəziyyət metamorfoz keçirən bütün canlılara aiddir.

Son illərdə metamorfozla bağlı aparılan elmi tədqiqatlar metamorfozun müxtəlif genlər tərəfindən tənzimlənən kompleks proses olduğunu göstərmişdir. Məsələn, qurbağanın metamorfozunda təkcə quyruqla bağlı proseslər bir çox genlə tənzimlənir. Bu, o deməkdir ki, metamorfoz prosesi ancaq bir neçə orqanın bir-birinə uyğun inkişafı ilə mümkündür. Bu xüsusiyyəti ilə metamorfoz reduksiya edilməz kompleksklik xüsusiyyəti daşıyan, yaradılışa dəlil olan bioloji mərhələdir.

Reduksiya edilməz komplekslik təkamül nəzəriyyəsinin əsassızlığını göstərən elmi fəaliyyətləri ilə tanınan biokimyaçı prof. dr. Maykl Bihi (Michael Behe) tərəfindən elmi ədəbiyyata gətirilən termindir. Reduksiya edilməz kompleks bioloji orqan və sistemlər onları təşkil edən hissələrin hər birinin iştirakı və uyğunlaşması ilə funksiyalarını yerinə yetirirlər və ən kiçik tərkib hissəsinin olmaması həmin sistem və ya orqanın funksiyasını itirməsi ilə nəticələnir.

Bu cür kompleks sistemlər təkamülün iddia etdiyi kimi, təsadüflər nəticəsində baş verən kiçik mərhələli dəyişikliklərlə meydana gələ bilməz. Bu, metamorfoza da aiddir. Metamorfoz mərhələsi fərqli genlərin idarə etdiyi hormonların çox həssas ölçüdə fəaliyyəti ilə reallaşır. Ən kiçik xəta belə canlının həyatına son qoyar. Bu qədər kompleks mərhələnin təsadüfən, mərhələli şəkildə meydana gəldiyini iddia etmək doğru deyil. Əgər kiçik bir xəta canlının həyatına son qoyursa, təkamül nəzəriyyəsinin irəli sürdüyü təbii seçmə yolu ilə sınama-yanılma mexanizmindən necə bəhs etmək olar? Heç bir canlı milyon illərlə çatışmayan hissələrinin təsadüfi dəyişikliklərlə əmələ gəlməsini gözləyə bilməz. (Harun Yəhya, “Ehtişam hər yerdədir”)

Bu faktları nəzərə aldıqda metamorfoz keçirən canlıların təkamülə dəlil olmadığı aydın olur. Əksinə, metamorfoz keçirən canlılar, bu möcüzəvi mərhələ və mərhələyə nəzarət edən sistemlərin kompleksliyi Allah’ın qüsursuz yaratmasının dəlilidir.

**“Yer üzündə olanların hamısını sizə görə xəlq edən, sonra göyə tərəf yönəlib onu yeddi qat göy edən Odur. O, hər şeyi bilir”. (Bəqərə surəsi, 29)**



# İSLAM DİNİ İNCƏSƏNƏT VƏ ESTETİKA İLƏ SIX BAĞLIDIR



Bir cəmiyyətin inkişafının və rifah səviyyəsinin ən əsas göstəricilərindən biri, şübhəsiz ki, incəsənət, estetika və keyfiyyətdə ən irəlidə olmasıdır. İslam dinində də incəsənətə böyük əhəmiyyət verilir. Bu günə qədər memarlıq, ədəbiyyat kimi bir çox sahədə iz qoymuş gözəl İslam incəsənəti nümunələri buna bariz nümunədir.

İncəsənət dedikdə rəssamlıq, musiqi kimi sahələr ağıla gəlsə də, möminlər bununla kifayətlənməz və həyatlarının hər sahəsində incəsənət və estetikanı ən yüksək səviyyədə tətbiq edərlər. Quran əxlaqının əsas xüsusiyyətlərindən biri olan təmizlik də incəsənət və estetika ilə birləşdikdə möminlərin həyatında yüksək keyfiyyət özünü göstərir.

## Yaşayış yerlərində incəsənət və estetika

Möminlər hər an Allah rizasının ən çoxunu hədəf seçirlər. Əxlaqlarını Allah`ın rizasına uyğun, əməlisaleh qulların yurdu olan cənnət əxlaqına yüksəltmək üçün cidd-cəhdlə çalışdıqları kimi, yaşayış yerlərini də cənnət məkanlarına mümkün olduğu qədər bənzətməyə çalışırlar. Evlərinin təmiz, işıqlı olması, lazımsız əşyalarla dolu olmaması, əşyalarının mümkün olduqca uyğun və xoş seçilməsi, çiçək və ya mənzərə rəsmi kimi bəzək əşyalarından istifadə olunması, ev əşyalarını yeniləmək mümkün olmasa belə, yerlərini bəzən dəyişdirərək fərq yaratmaq kimi yollarla möminlər evlərini gözəlləşdirərlər.



Evin baxımı ilə məşğul olmağın lazımsız və ya vaxt itkisi olduğunu düşünmək yanlışdır. Hz. Süleymanın (ə.s) sarayının gözəlliyindən Quranda hərtərəfli bəhs edilməsi bu mövzunun əhəmiyyətini göstərir. "Nəml" surəsində hz. Süleymanın (ə.s) sarayının gözəlliyi və bunun Səba məlikəsinə təbliğ edərkən nə qədər təsirli olduğu belə bildirilir:

***Ona belə deyildi: "Saraya daxil ol!" Sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və ətəyini qaldırdı (baldırlarını açdı). O (Süleyman): "Bu, büllurdan tikilmiş bir saraydır!" – dedi. (Bəlqis) dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. Mən artıq Süleymanla aləmlərin Rəbbi olan Allah`a təslim oldum!"*** (Nəml surəsi, 44)

Düşünən İnsan, Noyabr 2013

## Geyim və xarici görünüşdə incəsənət və estetika

Möminlər hər an və hər cəhəti ilə Allah`ın dinini təmsil etməyə cəhd göstərirlər. Buna görə, xarici görünüşlərinə həmişə çox diqqət edirlər.

Bəzi insanlar yanılaraq paltara və xarici görünüşə diqqət etməklə dünya həyatına meyillənir, insanların rəğbətini qazanmağı hədəf seçirlər. Halbuki, möminlər davranış və hərəkətləri ilə olduğu kimi, xarici görünüşlərindəki keyfiyyət və təmizlik ilə də insanları İslam əxlaqının gözəlliyinə, əsalətinə dəvət edirlər.

Peyğəmbərimiz (s.ə.v) gözəl geyinməyin təkəbbürdən qaynaqlanmadığını hədislərində belə bildirmişdir:

*"Allah gözəldir, gözəlliyi sevir, gözəl geyinmək təkəbbürdən deyil, təkəbbür (sahib olduğun neməti özündən bilib) haqqı inkar etmək, xalqı aşağı görməkdir". (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 7. cilt, Akçağ Yayınları, Ankara, səh. 208)*

Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) həmişə mümkün olduqca ən görkəmli və gözəl paltarlar geyinmiş, səhabələrə də bunu tövsiyə etmişdir. Peyğəmbərimizin (s.ə.v) nəvəsi hz. Həsən (r.ə) Rəsulullahın (s.ə.v) geyim haqqında fikirlərini belə bildirmişdir:

*"Peyğəmbərimiz (s.ə.v) bizə əldə etdiyimiz ən yaxşı paltarları geyinməyi və ən xoş ətirlərdən istifadə etməyi əmr edərdi". (Buhari, et-Tarih'ul-Kebir, I, 382, No:1222)*

Geyimə diqqət edilməsi Allah`ın Quranda açıq əmridir. "Müddəssir" surəsində belə buyurulur:

***Libasını təmizlə! Pis şeylərdən uzaqlaş! (Müddəssir surəsi, 4-5)***

Geyimdən əlavə, baxımlı və təmiz olmaq da dinin tələblərindəndir. Peyğəmbərimiz (s.ə.v) təmizliyə çox əhəmiyyət verdiyinə görə, saç və saqqal baxımına, yəni xarici görünüşünə də diqqət etmişdir. Bəzi mənbələrdə daima yanında daraq, güzgü, misvak, diş çöpü, qayçı, sürmə qabı kimi əşyalar götürdüyü bildirilir (Ali el-Kari, Cem'ul-Vesail fi Şerh'iş- Şemail, İstanbul, səh. 96-97).

## İncəsənətdən uzaq yaşayan cəmiyyətdə bayağılıq

İncəsənət və estetikadan uzaq, keyfiyyətsiz həyat yaşayan insanların çox böyük çatışmazlığı olur. Belə cəmiyyətin fərdlərinin dünyagörüşünün dar olduğu və hər sahədə geri qaldıqları müşahidə olunur. İncəsənətdən uzaq yaşamağın səbəb olduğu bayağılığın bəzi nümunələri bunlardır:

### İncə düşünmə qabiliyyətini itirirlər

İncəsənət və estetikadan uzaq yaşamaq insan ruhunun bütün incəliyini öldürür. Belə bir insanı gündəlik həyatına və özünə baxımsız davranması



bütün davranışlarından və söhbətindən görünür. Bu insanların ailələrinə, dostlarına və hətta alış-veriş zamanı kiçik söhbətlərində belə kobudluq və qeyri-uyğun üslub dərhal diqqət çəkir.

İslam dininin keyfiyyət anlayışı ilə tamamilə zidd olan bu davranışlar insanların qəlbinin İslama isinməsinə mane olur. Allah Quranda şeytanın möminlərin arasını vurmağa çalışdığını bildirmiş və möminlərə üslublarına çox diqqət etməyi əmr etmişdir. "İsra" surəsində belə buyurulur:

***Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)***

Möminlər istər xarici görünüşlərinə, istərsə də yaşayış yerlərinə diqqət göstərdiklərinə görə, incə düşünmək qabiliyyəti qazanırlar. Bu sahədə təfərrüatlara diqqət etmək möminlərə hər sahədə incəlikləri görməyi, incə düşünməyi asanlaşdırır. Beləcə, söhbətlərində də sözlərini ehtiyatla seçir, üslublarına diqqət edirlər. Bu isə yuxarıdakı ayədə də vurğulandığı kimi, möminlərin qardaşlıq əlaqələrini gücləndirən mühüm cəhətdir.

Düşünən İnsan, Noyabr 2013

## Təbiətdəki incəsənət və estetikanı sezmirlər

Həyatlarına incəsənətin hakim olması üçün cəhd etməyən insanların incəsənət əsərlərinə həssaslığı da itir. Bunun mənfi nəticəsi olaraq uşaq, gözəl çiçək, sevimli pişik və s. bu insanların ruhuna heç təsir etmir. Bu cür gözəl varlıqlarda Allah`ın sənətinin təcəllisini görmürlər. Şübhəsiz ki, bu, böyük itkidir.

Halbuki, geyiminin uyğun olmasına diqqət göstərən biri çiçəyin gözəl yaradıldığını, saçının səliqəsinə diqqət edən biri pişiyin tüklərinin daima parlaq olduğunu, evini gözəl bəzəyən biri günəşin batması ilə yaranan mənzərədəki rəng ahəngini daha yaxşı sezir, çünki bu gözəlliklərə həssasdır. Möminlər gördükləri hər gözəlliyin Allah`ın gözəlliyinin bir təcəllisi olduğunu bilir və bu gözəlliklər qəlblərini fərəhləndirir. Gözəlliklərin daha yaxşı fərqinə varmaq isə Allah`ı daha çox anmalarına və şükür etmələrinə vəsilə olur.

## Dinə layiqincə xidmət edə bilməzlər

Dinə xidmətdə incəsənət və estetika böyük əhəmiyyət daşıyır. Müsəlmanların başlıca hədəfi ateizmlə mübarizədir. Məlum olduğu kimi, ateizmə müasir dövrdə təkamül nəzəriyyəsi ilə elmi don geyindirilib. Müsəlmanların ateizmlə mübarizə üçün fəaliyyətlərində bütün təfərrüatlara diqqət etmələri vacibdir. Çünki bu mübarizədə əsl hədəf yaradılışın həqiqət olduğunu darvinizmin elmi yalanlarına aldananlara göstərməkdir. Bir əsərin (internet səhifəsi, kitab, sənədli film və s.) estetik, gözəl görünüşü, cidd-cəhdlə hazırlanması insanlarda həmin əsəri oxumaq meylini artıraraq, Allah`ın izni ilə, fəaliyyətin təsirini gücləndirir. Bir iş diqqətsiz, başdansovdu edildikdə dərhal bilinir. Bu isə həmin fəaliyyətin təsirini azaldır.

Gündəlik həyatda incəsənət və estetikadan uzaq yaşayan insanların din üçün xidmətlərinin təsir cəhətdən zəif olacağı aydındır. Özləri də baxımsız olan bu insanlar, şübhəsiz ki, fəaliyyətlərində də bir çox mühüm təfərrüatı gözdən qaçıracaqlar. Hətta bəzi insanlar bir müsəlmanın mübarizəsinin əsl hədəfinin darvinist-materialist sistem olduğunu belə görmürlər. Ateizm təhlükəsi davam edərkən bu təhlükəyə qarşı elmi mübarizə aparmaq əvəzinə, diqqətlərini bəzi müsəlmanları tənqid etməyə yönəldirlər.

Halbuki, müsəlmanlar hər an Allah`ın dininə layiqincə xidmət etməyə çalışan, Allah rizasının ən çoxunu hədəf alan insanlardır. ***"Həcc" surəsində "İnsanlardan eləsi də vardır ki, Allah`a bir ucundan ibadət edir..." (Həcc surəsi, 11)*** şəklində ifadə edilən insanlardan olmaqdan cidd-cəhdlə çəkinirlər. Möminlərin Allah yolunda xeyir işlərdə yarışdığı Quranda belə bildirilir:

***Onlar Allah`a, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. (Ali-İmran surəsi, 114)***

## İslamı tanımayanlarda İslama qarşı əks-fikir oyadırlar

İslam gözəl, əsalətli, keyfiyyətli olan hər şeyin toplandığı dindir. Müsəlman ən düzgün, ən yüksək əxlaqlı, ən keyfiyyətli insandır. Quranda bildirilən əsl müsəlmanlıq hər kəsin qibtə edəcəyi həyat tərzidir.

Ancaq incəsənət və estetikadan uzaq, bayağı

həyat tərzi və bunun İslam adı altında təqdim olunması İslam dinini tanımayan insanlarda İslama qarşı əks-münasibət yaranmasına səbəb olur. Bu gün bir çox insanın ateizmə meyil etməsinin başlıca səbəblərindən biri də budur. Şübhəsiz ki, bu vəziyyətin meydana gəlməsində İslamın tələb etdiyi keyfiyyətli həyat tərzini mənimsəməyə çalışmayan, dini səthi və ziddiyyətli şərh edərək, baxımsız və təmizlikdən uzaq yaşayanların böyük rolu var.

Müsəlmanlar Quranda hz. Süleyman (ə.s) qissəsində də bəhs edildiyi kimi, incəsənət və estetikanı təbliğdə əsas metodlardan biri kimi mənimsəməlidirlər. Bu sahədə tamamilə Qurana tabe olmaq bütün dünyada İslamın sürətlə yayılmasına vəsilə olacaq.

Hz. Süleyman (ə.s) Səba məlikəsinə təbliğ edərkən onun öz taxtını gətirtmiş, sarayına dəvət etmişdi. Hz. Süleymanın sarayının ehtişamlı dekorasiyası Səba məlikəsində böyük təsir oyandıraraq imanına vəsilə olmuşdu. Hz. Süleymanın (ə.s) təbliğinin bütün mərhələlərində incə düşüncəli davranışları və incəsənətdən faydalanması açıq-aydın görünür. Quranda bəhs edilən bu təbliğ metodundan bütün müsəlmanlar istifadə etməlidirlər.



# Nəticə

Bütün sadalananlar incəsənətdən uzaq, bayağı həyat tərzinin müsəlmanlara nə qədər böyük zərər vurduğunu göstərir. Müsəlmanlar İslam dinində mühüm yeri olan incəsənət, estetika və keyfiyyətdə yüksək səviyyəni əldə etmək üçün səmimi cəhd göstərməlidirlər.

Qiyamətdən əvvəlki son dövr olan axırzamanda gələcəyi hədislərlə müjdələnmiş hz. Mehdi (ə.s) İslamın incəsənət və keyfiyyət anlayışını tam canlandıracaq və Allah`ın izni ilə, bütün yer üzünə hakim edəcək. Hz. Mehdini (ə.s) sevən və onun tələbəsi olmağı səmimi qəlbdən istəyən hər müsəlmanın bu sahədə özünü təkmilləşdirməsi dinin tələbidir.



# HÜCEYRƏNİN İÇİNDƏKİ ƏN ƏSAS DETAL: ZÜLAL

Hüceyrəni təşkil edən vahidlərdən biri olan zülal ardıcıl düzülmüş amin turşularından təşkil olunmuşdur. Bir zülalın əmələ gəlməsi üçün bir çox şərt var. Bunlardan ən əsası aşağıdakılardır:

Amin turşuları peptid rabitəsi adlanan xüsusi rabitə ilə bir-birlərinə birləşməlidir;

Zülalı təşkil edən amin turşuları sol əlli olmalıdır;

Xüsusi ardıcıllıqla bir-birinə birləşməlidir.

100 amin turşusu uzunluğundakı kiçik bir zülal zəncirində belə amin turşularının təsadüfən sol əlli olması, təsadüfən xüsusi ardıcıllıqla birləşməsi, təsadüfən bir-birinə peptid rabitə ilə birləşməsi qətiyyən mümkün deyil. Bu ehtimalların heç birinin təsadüfən mümkün olmadığını görən elm adamları hesablama aparmış və belə bir təsadüf ehtimalının təqribən $10^{190}$-da 1 olduğunu müəyyən etmişlər (bu say 10 rəqəminin yanına 190 sıfır əlavə etməklə alınır). Belə bir ehtimalın baş verməsi üçün Yer kürəsinin yaşı qədər uzun müddət verilsə də, bir zülalın təsadüfən əmələ gəlməsi qeyri-mümkündür. Riyazi cəhətdən də $10^{50}$-də 1 ehtimalın sıfır ehtimal qəbul edildiyini nəzərə alsaq, bunu daha yaxşı anlaya bilərik. Çünki $10^{190}$ təqribən 4 ədəd $10^{50}$-dən ibarətdir.

Zülallar hüceyrələrin həm quruluş vahididir, həm də çox mürəkkəb orqanoidləri təşkil edirlər. Bütün bədəninizin, daha geniş mənada, bütün canlılar aləminin əsas quruluş vahidləridir. Bircə zülalın öz-özünə, təsadüfən əmələgəlmə ehtimalı yoxdursa, bu mükəmməl quruluşun hüceyrənin əsasını təşkil etməsi, bu qədər çox zülalın birləşməsi və mütəmadi olaraq yenidən sintezlənməsi təkamül nəzəriyyəsini kökündən təkzib edən mühüm faktdır.

Allah öz-özünə əmələ gəlməsi qeyri-mümkün olan bu mükəmməl xam maddəni insanlara tanıdaraq Öz yaratma sənətinin üstünlüyünü göstərir. İnsan onu təşkil edən saysız-hesabsız zülal üzərində bir neçə saniyə düşünərək Allah`ın hər an bir möcüzə yaratdığını açıq-aydın görə bilər. Bu nemətin əvəzində isə Allah`a şükür etməlidir.

***(Peyğəmbərlərinin) öz Rəbbinin göndərdiklərini təbliğ etdiyini bilsin. (Allah) onlarda olanların hamısını ehtiva etmişdir. O, hər şeyi bir-bir sayıb yazmışdır.***
***(Cin surəsi, 28)***



Düşünən İnsan, Noyabr 2013

# DƏNİZİN DƏRİNLİKLƏRİNDƏ ÇƏTİN ŞƏRAİTDƏ YAŞAYAN CANLILARIN TAKTİKALARI

XXI əsrdə dünyada kəşf ediləcək çox az təfərrüatın qaldığını düşünə bilərsiniz. Ancaq dənizlərin dərinlikləri hələ də müəmmasını qoruyur. Təqribən, 4 km dərinliyə malik okeanlar yerin 70%-ini tutur. Ona görə, dənizlərin dərinliyi bütün təbii mühitlər arasında ən geniş və ən çətin şəraitli yerlərdir. Ancaq Rəbbimizin rəhməti olaraq çox soyuq, tamamilə qaranlıq, əsasən, oksigen çatışmazlığı olan və səthdəkindən 1000 dəfə artıq təzyiqə malik dənizlərin dərinliyi bir çox canlı növünün sığınacağıdır.

Okeanların dibi həyat şəraiti baxımından ən əlverişsiz mühit olsa da, buralarda yaşayan canlılar var. Akulalar, qorxunc görünüşə malik, gözlərinin altındakı lampalardan qırmızı şüalar yayılan əjdaha balıqları, parıldayan balıqlar, selakant, dəniz zanbaqları, qırmızı mürəkkəb balığı, qaranlıqda parıldayan qolları olan osminoq, 13 metr uzunluğunda nəhəng kalmar (architeuthis), bakteriyalar, molyusklar və qabıqlı canlılar bu dərinliklərdə Rəbbimizin yaratdığı qüsursuz müxtəlifliyə nümunədir.

Hələ tam kəşf edilməmiş bu dərin aləmdə aparılan hər tədqiqat dəniz dibindəki heyranedici həyatın tanınmasına səbəb olur.

## *Allah dəniz dibindəki canlıların ruzisini verir*

Dəniz dibində tədqiqat aparan elm adamları uzun illər boyu 600 m-dən də dərin yerlərdə canlı həyat olmadığını irəli sürmüşdülər. Çünki əgər dərinliklərdəki canlılar yuxarıda yaşayan heyvanların artıq qalan qidalarını yeyirlərsə, deməli, müəyyən dərinlik ölçüsündən sonra qidalar tükənəcək və canlılar həyatlarını itirəcəklər. Ancaq növbəti illərdə aparılan tədqiqatlar okeanların ən dərin yerlərində belə canlıların yaşadığını göstərmişdir. Çünki okean yataqları nəhəng sualtı dağ silsilələri və bunlar arasında qalan geniş bataqlıq və palçıqlı sahədən ibarətdir. Lakin bu torpağın böyük hissəsi suyun yuxarı səthində yaşayan planktonların və ya qabıq dəyişdirən qabıqlı dəniz canlılarının, təkhüceyrəlilərin qalıqlarının okean yatağında toplanmasından əmələ gəlir. Ona görə, okeanın dibində tərkibində əhəng və silisium oksidi olan bu palçıq təbəqəsi dərinliklərdə yaşayan canlıların əsas qida mənbəyidir. Okeanların minlərlə metr dərinliyində oksigenin belə olmadığı palçıq təbəqəsində yaşayan bu gözlə görünməyən və metanla qidalanan arxebakteriyalar Yerin ekoloji müvazinəti üçün böyük əhəmiyyətə malikdirlər. Əgər bu mikroorqanizmlər olmasaydı, açıq dənizlərin dibindəki böyük miqdarda metan qazı atmosferə qarışar, istixana effektinin təsiri ilə qlobal isinmə baş verər, dünyanın hər yerindəki iqlim tarazlıqları pozular və Yer həyat üçün əlverişsiz isti planetə çevrilərdi.

Ən dərin yeri 11.000 m, orta dərinliyi isə 4000-5000 m olan okeanlarda 100 m-dən aşağıya günəş işığı çatmır. Ona görə, buralarda fotosintez prosesi getmir. Yüksək təzyiq, 2-4ºC temperatur və qaranlıq hökm sürür. Məhdud qida mənbələri ancaq yuxarı təbəqələrdən gələn artıq qida maddələri və üzvi maddələrdən ibarətdir. Qısaca desək, tamamilə fərqli mühitdir. Bütün bu çətin şərtlərə baxmayaraq, okeanların dərinliyində müxtəlif balıqlar, bir-birindən çox









fərqli onurğasız canlılar və mikroorqanizmlər yaşayırlar.

Dənizlərin dərinliyində bu bakteriya növlərindən başqa canlılar da yaşayır. Bu canlılar bakteriyalar kimi öz qidalarını hazırlamırlar, özlərindən daha kiçik canlıları ovlayırlar. Uca Rəbbimiz bu canlıların qidalarını asanlıqla tapması üçün ucunda qoxu bilmə orqanları olan çox uzun üzgəclər, iri ağız, iti sivri dişlər, tünd boz və ya qara dəri rəngi ilə kamuflyaj və yüksək təzyiq olan dərinliklərdə yaşamaları üçün xarici təzyiqlə hüceyrədaxili maye təzyiqini tarazlayan mükəmməl sistemlər yaratmışdır.



Okeanın dərinliklərində qida mənbələri və canlıların bu dərinliklərdə yaşamasını təmin edən yaradılış xüsusiyyətləri Rəbbimizin sonsuz yaratma gücünün nümunələrindən təkcə biridir. Uca Allah'ın hər yeri elmi ilə əhatə etdiyi bir Quran ayəsində belə bildirilir:

*Qeybin açarları Onun yanındadır, onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın Kitabda olmasın. (Ənam surəsi, 59)*



Düşünən İnsan, Noyabr 2013









*Canlılar dənizin dərinliklərindəki qaranlıq problemini Allah'ın bədənlərində hasil etdiyi işıqla aradan qaldırırlar*

Günəşin canlılara böyük fayda verən şüaları dənizlərdə ancaq 200-300 m dərinliyə qədər çatır. Okean canlıları da bu səbəbdən həmin işıqlı zolaqda yaşamağa üstünlük verirlər. İşıqlı zolaqdakı qida və canlı qalıqlarının əksər hissəsi isə zaman ərzində okeanın dərinliklərinə gedir və buradakı canlıların yaşamasını təmin edir. Müasir texnologiya ilə aparılan ölçmələrə görə, günəş işığının 3-30%-i dənizin səthində əks olunur. Dərinliyə doğru endikcə suyun rəngi əvvəl qızarır, sonra bənövşəyiyə və daha sonra da narıncı rəngə çevrilir. 100 m dərinlikdə isə artıq tünd mavi rəng hökm sürür. İlk 200 metrdə işıq spektrinin mavi işığı son olmaqla 7 rəngin hamısı ardıcıl sorulur. 1000 m-dən dərin ərazilərdə isə artıq işığa rast gəlinmir. Bu qaranlıq mühitdə



canlılar bədənlərindəki işıq saçan orqanlarla hərəkət edirlər. Bu canlılar kimyəvi reaksiya nəticəsində bədənlərində işıq hasil edirlər. Bioluminesent adlanan bu işıq, işıq hasil edən maddə olan lusiferin və reaksiyanı başladan lusiferaz fermentlərinin ortaq fəaliyyətinə oksigenin əlavə edilməsi ilə başlayan kimyəvi reaksiya nəticəsində meydana gəlir. Bəzi canlılarda isə bu işıq heyvanın dərisində yaşayan bakteriya koloniyasından qaynaqlanır. Uca Allah'ın üstün ağlının nəticəsi kimi işıq saçan canlıların bu çox xüsusi nemətə malik olmasının bir çox səbəbi var. Bu xüsusiyyətləri bir neçə başlıq altında xülasələmək olar:

***Qida tapma:*** Okeandakı alaqaranlıq zolaqlarda bəzi heyvanlar işıq yayma qabiliyyətlərindən qida tapmaq üçün istifadə edirlər.

***Ov ovlama:*** Tilovlu balıq ətrafdakı digər balıqları aldadaraq ovunun diqqətini çəkmək üçün işığından istifadə edir.

***Kamuflyaj:*** Okeanın qaranlıq hissələrində dərin yerləri görmək çox çətindir. Lakin yuxarıdan siluetləri görmək asandır. Ona görə, bəzi növlər bədənlərinin alt hissəsindən parlaq işıq yayırlar. Bu işıq yuxarıdan baxan birisi üçün balığın görüntüsünü bulanıqlaşdırır və dənizdə düşmənlərinə görünmədən üzməsini təmin edir.

***Təqlid:*** "Cookie-cutter" növündən olan akulanın gövdəsinin altında işıq yayan hissə var, bu hissə kiçik balığa bənzəyir. Balıq, beləliklə, kiçik balıq kimi görünərək onu yeməyə gələn böyük balıqları ovlayır.

***Müdafiə:*** Bəzi heyvanlar yanlarına təhlükə yaxınlaşdıqda mürəkkəbə bənzər sıx, parlaq maye ifraz edir, bu yolla onu ovlamağa gələn balıq onu görmür, canlı da oradan sürətlə üzüb uzaqlaşır. Bəzi işıq saçan canlılar isə özlərini müdafiə etmək üçün onlara hücum edən heyvanları kor edəcək səviyyədə parlaq işıq yayırlar. Dərinliklərdə yaşayan bir osminoq növü isə təhlükə zamanı eynilə səth osminoqu kimi davranır. Ancaq həmnövündən fərqli olaraq təhlükə zamanı düşməninin üstünə mürəkkəb deyil, bədəninə yapışaraq yaşayan işıqlı bakteriyaları göndərir.

***Çoxalma:*** Yaydıqları işıqla əks cinsin onu daha asan tanımasına səbəb olur.

***İstiqaməti müəyyən etmə:*** Bəzi təkhüceyrəli planktonları narahat etdikdə parıldayırlar. Məsələn, kiçik balıq planktonları yeməyə başladıqda plankton parıldamağa başlayır. Beləliklə, bu işıq özünə ov axtaran və planktonu narahat edən balığı ovlamaq istəyən daha böyük balığın diqqətini cəlb edir.

Hər şeyə qadir olan uca Allah canlılara işıq saçma xüsusiyyəti bəxş edərək dənizlərin dərinliyindəki qaranlığa uyğunlaşmalarına imkan vermiş və bu canlıları da digər bütün canlılar kimi qüsursuz nizamla yaratmışdır. Rəbbimiz bu həqiqəti Quranda belə xəbər verir:

*O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa (hamısı) Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)*

Düşünən İnsan, Noyabr 2013

# Yalan danışmaq şeytanın xüsusiyyətidir



Yalan danışmağa vərdiş edən insanların bir qismi yalanlarının üstü açılanda utanmazlar. Hətta başqa yalanlar danışaraq əvvəlki yalanlarını ört-basdır etməyə çalışarlar. Halbuki, mömin şeytana uyub səhvən yalan söyləsə, bundan utanar, üzü qızarar, dərhal tövbə edərək Allah`dan bağışlanma diləyər və doğrunu söyləyər.

Din əxlaqını yaşamayan insanların böyük hissəsi isə bəzən yalan söyləyirlər. İnsanların niyə yalan söylədiklərinə baxsaq, görərik ki, buna bir-birinə bənzər hadisələr səbəb olur. Məsələn, bu insanlardan:

Bəziləri özlərini insanlara nümayiş etdirmək üçün,

~ *Bəziləri təkəbbür və qürurundan,*

~ *Bəziləri insanlara şirin görünmək üçün,*

~ *Bəziləri mənfəət əldə etmək üçün,*

~ *Bəziləri kimdənsə və ya nədənsə xilas olmaq üçün,*

~ *Bəziləri isə kiməsə böhtan atmaq üçün yalan söyləyər.*

Bu əxlaqa sahib olan insanların böyük hissəsi çox vaxt adi səbəblərdən və ya sırf vərdiş etdikləri üçün yalan söyləyirlər. Bu insanların əksəriyyəti yalanın ciddi şəxsiyyət pozuntusu olduğunu anlamır və yalan söyləyən adamın (Allah`ın izni ilə) yalan danışdığının məlum olduğunu bilmirlər.

## Yalançı insanın bəzi xüsusiyyətləri

### Daim and içərək inandırmağa çalışır

Dediklərində səmimi olmayan bir insan digərlərini inandırmaq üçün tez-tez and içir. Allah yalançıların bu xüsusiyyətini Quranda bir çox ayə ilə bildirir. Məsələn, bir ayədə Allah münafiqlərin hz. Muhəmmədin (s.ə.v) peyğəmbərliyini qəbul etdiklərinə dair and içdiklərini bildirir. Əslində isə münafiqlər hz. Muhəmmədin (s.ə.v) peyğəmbərliyini qəbul etməmişlər. Buna görə də Allah onların yalançı olduqlarını xəbər vermişdir:

***Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allah`ın elçisisən!"– deyirlər. Allah da bilir ki, sən***



*Onun elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar. Onlar andlarını sipər edib (insanları) Allah yolundan döndərdilər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir! Bu, ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar. (Munafiqun surəsi, 1-3)*

Ayələrdə də bildirildiyi kimi, ikiüzlülər andlarını yalanlarına, saxtakarlıqlarına sipər edirlər. Allah bir başqa ayədə də münafiqlərin bu xüsusiyyətini belə bildirir:

*(Münafiqlər) sizdən olmaya-olmaya mütləq sizdən olduqları barədə Allah`a and içərlər. Lakin onlar qorxaq bir zümrədir. (Tövbə surəsi, 56)*

Allah bir başqa ayədə isə daim and içən şəxslərlə əlaqədar belə buyurur:
*İtaət etmə hər tez-tez and içənə, alçağa (Qələm surəsi, 10)*

## Allah`ı şahid gətirərək özünü təmizə çıxarmağa çalışır

Yalançıların and içməkdən başqa üslubları da var. Onlar danışıqlarında tez-tez dindar olduqlarını vurğulayırlar. Məsələn, yalanına inanılmadığı və ya şübhə edildiyi zaman: «*Allah mənim qəlbimdəkini bilir*», «*Allah şahiddir*», «*Əgər doğru deyilsə, Allah buradan çıxmağımı nəsib etməsin*», - deyərlər. Halbuki, bu cür ifadələr belə insanların səmimiyyətsizliklərini gizlətmək üçün istifadə etdikləri üsuldur.

Allah qəlblərində səmimiyyətsizlik olmasına baxmayaraq, Onu şahid göstərən şəxslər haqqında Quranda belə bildirir:

*İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allah`ı şahid göstərər. Əslində, o, ən qatı mübahisəçidir. (Bəqərə surəsi, 204)*

Səmimi insanın halı və rəftarı isə onun səmimi və dürüst olduğunu göstərir. Həyatının hər anında daim səmimi davranan bir insanın səmimi və dürüst olduğunu

sübut etməsinə ehtiyac olmaz, çünki onun səmimi olduğu ətrafındakı insanlar tərəfindən asanlıqla görünür. Ancaq səmimi olmayan insanlar bunu daim sözlə sübut etməyə çalışırlar və qarşılarındakı insanları inandırmağa çalışırlar.

## Yalana zəmin hazırlayan giriş cümlələrindən istifadə

And içmək və dini məna verən cümlələrdən istifadə etməklə yanaşı, yalançının yalanlarına zəmin hazırlayan, yalanına əvvəldən inandırmağa çalışan ifadələri olur. «Çox səmimi deyirəm», «mənə inana bilərsən», «bütün səmimiyyətimlə söyləyirəm», «həqiqətən, doğru söyləyirəm» kimi sözlər də bu məqsədlə deyilər.

Yuxarıda qeyd etdiyimiz kimi, münafiqlər Peyğəmbərimizə (s.ə.v) Allah'ın elçisi olduğunu dediklərində sözlərinə: «Şahidlik edirik ki», - deyə başlayırlar. Sözlərində səmimi olmadıqları üçün giriş cümlələri ilə insanları inandırmağa çalışırlar. Halbuki, Peyğəmbərimizin (s.ə.v) Allah'ın elçisi olduğu məlumdur və bunun üçün birisinin şahidlik etdiyini, səmimi söylədiyini deməyə ehtiyac yoxdur. Səmimi olaraq iman gətirən insan bu cür ifadələrə ehtiyac duymaz. Bir müsəlman «bunu bütün səmimiyyətimlə deyirəm, inana bilərsən» kimi bir cümləni lüzum bilməz, çünki müsəlman hər zaman səmimidir, Allah`ın onu hər an gördüyünü və eşitdiyini bildiyi üçün səmimiyyətsizlik, ikiüzlülük etməz.

Ancaq bu, o demək deyil ki, bu cümlələri deyən hər adam yalan



# Yalançının fiziki görünüşü və bəzi davranışları

söyləyir. Səmimi insan da lazım olanda bu ifadələrdən istifadə edə bilər. Ancaq yalan söyləyən insanlar bu cür giriş cümlələri və ya yalanlarını dəstəkləyən cümlələrdən tez-tez istifadə edirlər.

Yalançı, ikiüzlü və səmimiyyətsiz insanın davranışları, üzü, səsi və üslubu dürüst və səmimi insandan fərqlənir və o, bu xüsusiyyətləri ilə də özünü ələ verir. Allah Quranda ikiüzlü insanların danışıq tərzlərindən və üzlərindən tanınacaqlarını belə bildirir:

***Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Muhəmməd surəsi, 30)***

Əgər insan yalan söyləyirsə, deməli, o, ətrafındakılara güvənmir, onları dostları və yaxınları kimi görmür. Həm yaxınlıq duymadığı insanlarla birlikdə olmaqdan, həm də yalanının üstünün açılmasından qorxduğu üçün onun rəftarları da təbii olmaz. Səsi zəif çıxar, gözləri kiçilər. Qarşısındakı insanlara qorxaraq və ya çəkinərək baxar. Səmimiyyətsizliyi, etibarsızlığı və narahatlığı gözlərindən bəlli olar.

Yalan danışmağa adət etmiş şəxslər bəzən yalan danışanda həddindən artıq sakit olur, bir çox insan isə yalan danışanda həyəcanlanır, əlləri tərləyir və narahat olur. Onlarda sakit, dinc ruhlu bir insanın halı olmaz. Yalan söyləyərkən daim gözlərini qaçırar, qarşısındakı insanın gözlərinə baxa bilməzlər. Ancaq ani baxar və ya izdihamlı yerdə özünü başqalarının arxasında gizlətməyə çalışarlar. Yalanın ortaya çıxmasından, gözlərinin onları ələ verməsindən çəkinərlər.

Allah "Hud" surəsindəki bir ayəsində səmimiyyətsiz insanların bu şəkildə özlərini gizlətməyə çalışdıqlarını belə bildirir:

***Baxın, onlar ürəklərini qısırlar ki, Allah`dan gizlənsinlər. Doğrusu, onlar libaslarına büründükdə belə, (Allah) onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir. (Hud surəsi, 5)***

Yalan söyləyən adam axirəti deyil, yalnız həmin anı düşünür

İnsanın yalan söyləməsinə mane olan əhəmiyyətli həqiqət ölümündən sonrakı sonsuz həyatını, cənnəti və cəhənnəmi düşünməsidir. Bir insana yalan danışmaq və vəziyyətdən xilas olmaq o an üçün çox asan və faydalı çıxış yolu kimi görünür. Ancaq bir insan dünya həyatında nə qədər ağır vəziyyətdə olsa da, bu, axirətdə yaşayacağı əzabla müqayisə edilə bilməz. Elə isə ağıllı və vicdanlı bir insan belə bir vəziyyətlə qarşılaşdığında dərhal axirətdə ala biləcəyi qarşılığı düşünməlidir. Bir anlıq rahatlıq və ya mənfəət üçün həm dünyada, həm də axirətdə hörmətdən düşməyi və əzab içində yaşamağı qəbul etməməlidir. Allah bir ayəsində dünya həyatları üçün axirətlərini verən insanlar haqqında belə buyurur:

***Onlar axirəti verib dünya həyatını satın aldılar. Ona görə də onların nə əzabı yüngülləşdiriləcək, nə də onlara kömək göstəriləcəkdir. (Bəqərə surəsi, 86)***

Dürüst insan isə bəzən çətinlikləri gözə almaq vəziyyətində qala bilər. Ancaq dürüst və səmimi olduğu üçün daim qazanar. Allah onun gözəl əxlaqına görə dünyada və axirətdə ona nemətini, rəhmətini, sevgisini, razılığını bildirər və onu cənnətlə mükafatlandırar. Uca Allah dürüst olan səmimi möminlərin qarşılaşacağı gözəl nəticəsini Quranda belə bildirmişdir:

***Allah dedi: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün (ağacları) altından çaylar axan və içində əbədi qalacaqları cənnət bağları hazırlanmışdır". Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur. (Maidə surəsi, 119)***

# UÇAN CANLILARIN ÜSTÜN DİZAYNI VƏ AERONAVTİKA TEXNOLOGİYASI



Quşların və uçan həşəratların üstün dizaynı elm adamlarını həm heyrətə salır, həm də onlara təyyarə dizaynlarında yol göstərir. Quşlar uçarkən qanadlarını təbii şərtlərə görə ən yaxşı şəkildə hərəkət etdirirlər. Quşların qanadları külək kimi təbii amillərə görə avtomatik dəyişiklik etməyə uyğun yaradıldığı üçün ən yaxşı uçucu qəbul olunurlar. Təyyarə texnologiyasına istiqamət verən firmalar quşların bu xüsusiyyətlərindən faydalanmağa çalışırlar. NASA, Boeing firması, ABŞ Hava Qüvvələri təyyarəyə yerləşdirilmiş kompyuterdən gələn məlumatlara əsasən forma dəyişdirən, şüşə liflərdən hazırlanmış elastik qanad dizayn edib. Həmin kompyuter, eyni zamanda, uçuş şərtlərini (temperatur, küləyin gücü) bildirən ölçmə cihazlarının verdiyi məlumatı da əməliyyatdan keçirəcək. Kompyuter aldığı məlumatlara əsasən, qanadların əyriliyini ən uyğun şəkildə dəyişdirə biləcək.

"Airbus" firması da bu sahədə çalışır. Bu firma təyyarənin qanadlarına eynilə quşlarınkı kimi uçuş şərtlərinə görə formasını dəyişən qanadlar (adaptive wings) tətbiq etməyə çalışır. Məqsəd yanacaq sərfini və xərcləri azaltmaqdır.

Quşlarla aeronavtika texnologiyasını müqayisə etsək, bu üstün uçuş dizaynından çox nümunə götürməli olduğumuzu anlayarıq. "TAI" türk aeronavtika və kosmik sənayesində təyyarə mühəndisi üzrə çalışan elm adamı Necmi Kara bu barədə belə deyir: "Ən qabaqcıl texnologiya belə quşun ən yaxşı, ən uyğun konstruksiyasını təqlid edə bilmir". (Engineers Ask Nature for Design Advice , Jim Robbins, New York Times, 11 December 2001)

Qısaca desək, quşların uçuş forması və qanad quruluşları sözün əsl

mənasında dizayn möcüzəsidir. Quşların bu bənzərsiz dizaynı illərdən bəri təyyarə mühəndislərinə ilham mənbəyi olub. Allah bu canlıları uçmağa ən əlverişli sistemlərlə yaratmışdır. Quşların bu dizaynı və bu dizaynın hər şeyi düşünən, qüsursuz ağıla malik bir yaradanın əsəri olduğu inkaredilməzdir. Allah Qurani-kərimin bir ayəsində bu canlıların yaradılışına belə diqqət çəkir: ***Məgər onlar başları üstündə qanad çalaraq uçan quşları görmürlərmi? Onları (göydə) ancaq Rəhman saxlayır. Həqiqətən, O, hər şeyi görəndir! (Mülk surəsi, 19)***

## Quşların qanadları təyyarə istehsalına istiqamət verir

Quşların uçuşunun tədqiq olunması təyyarə qanadlarının quruluşunda mühüm dəyişikliklərə səbəb olur. Bu dəyişikliklərin tətbiq olunduğu ilk təyyarələrdən biri amerikan qırıcı təyyarəsi "F-111"-dir. Bu təyyarənin qanadlarında istiqaməti dəyişən hərəkətlərlə təyyarənin sağa və ya sola dönməsini təmin edən kiçik qanadlar var. Təyyarə quşlar kimi qanadlarının formasını qanadın yan tərəfdən görünən əyriliyinin artıb-azalması ilə dəyişdirərək sağa və ya sola dönür.



İstiqamətini dəyişərkən klassik üzgəcli qanadları olan təyyarələrdə müvəqqəti müvazinətsizlik meydana gəlirdi. Lakin bu təyyarələrdə qanadın əyriliyinin dəyişməsi ilə əldə edilən üstünlükdən faydalanan təyyarələr istiqamət dəyişərkən müvazinətdə qalırlar.

## Quzğunun lələkləri aeronavtika tədqiqatlarına yol göstərir

Təyyarə uçarkən qanadının ucunda təzyiq fərqindən qaynaqlanan böyük hava girdabları əmələ gəlir. Bu girdablar uçuş zamanı təyyarəyə mənfi təsir edir.

Aeronavtika sahəsində quzğunları tədqiq etdikdə onların lələklərini (qanadlarının uclarındakı böyük lələkləri) əl barmaqları kimi açdığı müşahidə olunub. İstehsalçılar quzğunun qanad lələklərini təqlid edərək metaldan kiçik qanadlar düzəldib körük kimi sınaqdan keçirməyi düşünürlər. Bu cür qanadların kiçik hava girdabları əmələ gətirdiyi və təyyarəyə daha az zərər verdiyi sübut olunub. İndi bu kiçik qanadların təyyarələrin qanad uclarına tətbiq edilməsi üçün iş aparılır.

## Elm uçan həşəratların aerodinamik texnikasını hələ də aşkar edə bilmir



Bir həşərat uçarkən saniyədə təqribən bir neçə yüz dəfə qanad çalır. Hətta qanadlarını saniyədə 600 dəfə çırpan həşəratlar var. Bir saniyədə qeyri-adi həssaslıqda bu qədər hərəkət həşərat qanadlarını təqlid etməyi qeyri-mümkün edir.

Kaliforniya Universitetində biologiya professoru olan Maykl Dikinson və həmkarlarının drozofil milçəklərinin uçuş texnikasını aşkar etmək üçün düzəltdiyi robot drozofil milçəyindən 100 dəfə böyükdür və qanad çırpma sürəti meyvə milçəyinin qanad çırpma sürətinin 1000-də 1-i qədərdir. Üstəlik, hər beş saniyədə bir dəfə qanad çırpan robot milçəyin bu hərəkətini təqlid etmək üçün 6 motordan istifadə edir.

Elm adamları illərdir həşəratların qanad çırpma hərəkətlərini dərindən öyrənmək üçün müxtəlif təcrübələr keçirirlər. Bunlardan biri də Kaliforniya Universitetindən olan bioloq professor Maykl Dikinsonun drozofil milçəkləri üzərində keçirdiyi təcrübələrdir. Bu təcrübələrdə Dikinson milçəyin qanadlarının sadə düz hərəkətlər etmədiyini, əksinə, çox mürəkkəb aerodinamik texnikalardan faydalandığını müəyyən etmişdir.

Habelə, hər qanad çırpmada qanadların istiqaməti dəyişir: aşağı hərəkət edən qanadda yuxarı hissə yuxarıya baxır, yuxarıya hərəkətdə isə qanad çevrilir, qanadın alt hissəsi yuxarıya baxır. Bu kompleks uçuş texnikasını təhlil etmək istəyən elm adamları isə təyyarə qanadlarında istifadə olunan klassik aerodinamikanın kafi olmadığını bildirirlər.

Drozofil milçəkləri də uçmaq üçün bir neçə aerodinamik xüsusiyyətdən faydalanırlar. Məsələn, milçək qanadlarını bir dəfə çırpdıqda arxasında girdablı, qarışıq hava dalğası əmələ gətirir. Qanad geriyə çevrilərkən bunu kilvater kimi dalğanın içindən keçirərək əvvəl itirdiyi enerjisinin bir qismini yenidən bərpa edir. Saniyədə 200 dəfə qanad çırpan 2.5 millimetrlik drozofil milçəyi və digər həşəratların uçma əzələləri ən güclü əzələlərdir. Qanadlarla yanaşı, iti gözləri, müvazinətlərini saxlamaq üçün kiçik arxa qanadları və qanadları tənzimləyən reseptorları da uçan həşəratların dizaynının mükəmməlliyini artırır.Burada bir məsələni də nəzərdən qaçırmamaq lazımdır: uçan həşəratlar milyon illərdir bu aerodinamika qanunlarından istifadə edirlər. Dövrümüzdə də ən qabaqcıl texnologiyalardan istifadə edən elm adamlarının həşəratların uçuş texnikalarını aşkar edə bilməməsi yaradılış dəlillərindəndir. Allah hikmətlə baxan gözlər üçün kiçik bir həşəratda da ağlının və elminin bənzərsiz

olduğunu bizə göstərir. Bir ayədə Allah buna belə diqqət çəkir:

*Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 17)*

## Bayquşun səssizliyi

Bayquşlar gecələr ovlarını tutmaq üçün hiss etdirmədən səssizcə onların üstünə atılırlar. Hampton, Virciniyadakı NASA Lenqli Tədqiqat Mərkəzindəki tədqiqatçıların bildirdiyinə görə, bir çox quşun uçuş tüklərinin kənarları düz formadadır. Bayquşların uçuş tükləri isə yumşaq saçaqlıdır. Bu isə havanın qanadın üzərindən keçərkən əmələ gətirdiyi girdabı və səbəb olduğu uğultunu azaldır. Bayquş qanadlarını təqlid edərək hərbi sənaye dizaynerləri görünməz təyyarələri daha da gizli etməyi nəzərdə tuturlar. Bayquşların dizaynı sayəsində radarların görmədiyi təyyarələrin heç eşidilməyəcək qədər səssiz olmasına çalışılır.





## Qanad formaları

Quşların qanad forması uçmada rol oynayan başlıca amildir. Şahin, qırğı və qaranquş kimi sürətli uçan quşların qanadlarının ucları digər quşların qanadlarına nisbətən daha maili, dar və sivri ucludur. Quşların bu xüsusiyyətləri təyyarə mühəndislərinə yol göstərir. Düz qanadlar daha çox qaldırma qüvvəsinə malikdir. Bu, havaya qalxma və yerə enmə zamanı vacibdir. Ancaq yüksək sürətli uçuş üçün ən yaxşı qanadlar geriyə doğru maili olan qanadlardır. Bu iki xüsusiyyətdən də faydalanmağın yeganə yolu istiqamətini dəyişdirə bilən qanadlar düzəltməkdir. Bunlar hərəkətli qanadlar adlanır. F-111, Tornado kimi qırıcı təyyarələrin belə qanadları var. Bu təyyarələr sürətini artırdıqca qanadları quyruğa doğru istiqamətini dəyişdirir.

# Allah'ın insanlara haqq kitablarda vəhy etdiyi sistem - DEMOKRATİYA

İnsan həyatının çox mühüm hissəsi olan və həyat keyfiyyətini yüksəldən azadlıq ancaq demokratiya anlayışının hakim olması ilə mümkündür. Çünki demokratiya bütün insanların sosial ədalət, bərabərlik, haqq və azadlığa sahib olduğu idarəetmə formasıdır. Demokratiya peyğəmbərlər vasitəsilə uca Allah'ın qullarına haqq kitablarda vəhy etdiyi bir nemətdir. Bütün haqq kitablarda azadlıq, sevgi, mərhəmət, ədalət, hər kəsin sərbəst yaşayacağı, sərbəst fikirlərini dilə gətirə biləcəyi sülh içində yaşanan bir mühit əmr edilmişdir. Bu səbəbdən, demokratiyanın ilk yarandığı yer kimi qəbul edilən qədim yunan torpaqları və ya müasir dövrdə demokratiyanın mərkəzi olaraq qəbul edilən Avropa ölkələri demokratiyanı haqq dinlərdən öyrəniblər. Lakin demokratiyanın ən inkişaf etmiş forması İslam əxlaqının bütün dünyaya hakim olması ilə yaşanacaq.

İslam əxlaqını tanımayan və ya yeni tanış olan bəzi insanlar İslamı yanlış mənbələrdən öyrəndikləri üçün yanlış ön mühakimələrə və fikirlərə sahib olurlar. Bu insanlar heç bir doğruluğu olmadığı halda, İslamın azadlıqlarına mane olacağına, sənət və elmə zərər vuracağına inanırlar. Halbuki, İslam insanlara ibadət, fikir və söz azadlığı təmin edən, onların hər cür haqqını himayə altın alan və insanlara gerçək azadlıq verən bir dindir. Quranda bildirilən "Əgər səni yalançı hesab etsələr, de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız, mən də sizin etdiyiniz əməllərdən uzağam" (Yunis surəsi, 41) ayəsi uca Allah'ın qullarına demokratiyani əmr etdiyi ayələrdən biridir. Bu ayədə heç kimə təzyiq edilməməsinin, hər kəsin fikir və inanc azadlığına



sahib olmasının əhəmiyyəti çox açıq ifadə olunmuşdur.

Demokratiyanın hər şərti ancaq İslam əxlaqının yaşanması ilə tətbiq oluna bilər.

1.Sosial ədalət: uca Allah sosial ədaləti əmr edir.

Əsl demokratik sistemdə sosial ədalət demokratiyanın əsas prinsiplərindən biridir. İnsanlar sosial ədaləti hz. İbrahim (ə.s) və hz. Nuhdan (ə.s) öyrəniblər. Dini mənbələrə görə, hz. Nuh (ə.s) tufandan sonra gəmi quruya çıxanda çox az qalan noxud, mərcimək, üzüm, əncir, bulğur kimi ərzaqların hamısını qarışdırıb bişirmiş və aşura hazırlamışdır. Sonra gəmidə olan hərkəslə birlikdə hazırladığı yeməyi yemişdir. Bu sosial ədalətdir. Çünki hər kəsə bərabərlik, köməksevərlik və paylaşmağı öyrədir və insanlara yemək verməyin önəmini xatırladır: **“Elçilərimiz mələklər İbrahimə müjdə gətirdilər və: “Salam!” – dedilər. O da: “Salam!” – dedi və dərhal gedib qızardılmış bir buzov gətirdi. (Hud surəsi, 69)** ayəsində xəbər verildiyi kimi, hz. İbrahim (ə.s) qonaqları gələndə dərhal bir buzov kəsib bişirmiş və qonaqlara təqdim etmişdir. Hz. İbrahimin (ə.s) heç tanımadığı insanlara yemək təqdim etməsi ilə uca Allah yemək ikram etməyin gözəl davranış olduğunu, həmçinin mümkün olduqca yoxsullara da yemək hədiyyə etməyin əhəmiyyətini hikmətli bir örnəklə bildirmiş və sosial ədalətə diqqət çəkmişdir.



2 Bərabərlik: uca Allah irqlərin bir-birinə üstün olmadığını Quranda bildirmişdir.

Rəbbimiz bir Quran ayəsində xəbər verdiyi kimi üstünlüyün təqvaya görə olacağını bildirmişdir. Ayədə belə buyurulur:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hücurat surəsi, 13)**

Uca Allah’ın əmr etdiyi bu həqiqəti Peyğəmbərimiz (s.ə.v) isə hədislərində belə buyurmuşdur:

Düşünən İnsan, Noyabr 2013



*"Ey insanlar! Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar mütləq və mütləq irqləri ilə öyünmək duyğusunu tərk etməlidirlər.! (Sünen-i Ebu Davud, 4/331)*

**Peyğəmbərimiz (s.ə.v) vida xütbəsində isə müsəlmanlara belə müraciət etmişdir:**

Nəsillərlə öyünülməz. Ərəblər ərəb olduqlarına, əcəmlər (ərəb olmayanlar) əcəm olduqlarına görə üstün olmazlar. Çünki Allah qatında ən uca olanınız ona qarşı gəlməkdən ən çox çəkinənizdir (ən təqvalınızdır)". (www.enfal.de/veda.htm)

3 - Ədalət: uca Allah ədaləti əmr edir

Allah Quranda möminlərə: **"...Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**, - deyə buyurmuşdur. Peyğəmbərimiz hz. Muhəmmədin həm müsəlmanlar arasında verdiyi hökmlər, həm digər din, dil, irq və qövmlərdən olan insanlara qarşı ədalətli və şəfqətli mövqeyi, həm də Allah'ın ayəsində bildirdiyi kimi zəngin, yoxsul ayırd etmədən hərkəsə bərabər davranması demokratiya anlayışına gözəl nümunədir.

Allah bir ayəsində belə buyurur:

**Onlar yalana həvəslə qulaq asanlar və daima haram yeyənlərdir. Əgər onlar yanına gəlsələr, aralarında hökm ver və ya onlardan üz çevir. Əgər onlardan üz çevirsən, sənə heç bir şeylə zərər verə bilməzlər. Əgər onların arasında hökm verməli olsan, ədalətlə hökm ver. Şübhəsiz ki, Allah ədalətli olanları sevir.(Maidə surəsi, 42)**

Peyğəmbərimiz (s.ə.v) bu ayənin hökmünə uyğun olaraq sözə baxmayan qövmün içində belə, Allah'ın əmrini yerinə yetirmiş və heç vaxt ədalətdən güzəştə getməmişdir. Daima ayədə bildirildiyi kimi: **"Rəbbim ədalətli olmağı əmr etdi..." (Əraf surəsi, 29)** - deyərək hər dövrdə bütün insanlara nümunə olmuşdur.

Demokratiya yalnız Allah'ın əmr etdiyi əxlaq anlayışının yaşanması ilə mümkündür

Göründüyü kimi, İslamın əsasında düşüncə, inanc və söz azadlığı vardır. Bəzi insanlar demokratiyanın insanlıq tarixinə qədim Yunanıstanla girdiyini zənn edirlər. Halbuki, insanlara demokratiyanı öyrədən Allah'dır. Hz. Adəmdən (ə.s) indiyə

qədər bütün peyğəmbərlər azadlığın, azad düşüncənin, fikirlərə hörmətin əsl təmsilçiləridirlər. Demokratiya deyiləndə insanların ağlına gələn azadlıq, ədalət, heç kimə təzyiq edilməməsi, hər insanın birinci dərəcəli vətəndaş olması, insanlara hörmətlə yanaşılması, etibar edilməsi, insanların fikirlərinə görə mühakimə olunmaması kimi bütün anlayışların əsası din əxlaqında mövcuddur. İnsanlar bunları tarix boyu Allah'ın endirdiyi haqq dinlər vasitəsilə öyrənmişlər və ən gözəl örnəklərinə də haqq dinlərin yaşandığı dövrlərdə şahid olmuşlar.

İnsanlara düşüncələrəinə görə zülm edildiyi, fərqli ideologiyalara sahib olanların əzildiyi, fərqli din mənsublarının təhqir olunduğu, alçaldıldığı, sənətin, elmin, incəsənətim öldüyü, insanların həyat sevinclərini itirib robota çevrildikləri, kitab yandırmalarının, cinayətlərin, qətl və soyqırımların yaşandığı dövrlərə baxanda isə ya dinsiz, ateist ideologiyaların, ya da din əxlaqını özündən uzaqlaşdıraraq radikal bir zehniyyətlə yanlış şəkildə izah edənlərin təsirini görürük.

Uca Allah'ın haqq dini Allah'ın əmr etdiyi şəkli ilə yaşandıqda insanların həsrətini çəkdikləri gerçək ədalət, demokratiya, hörmət və sevgi yaşanır. Allah'ın izni ilə çox yaxında demokratiya, qardaşlıq, sevgi, dostluq, sülh tarixdə tayı-bərabəri görünməmiş bir şəkildə bütün dünyaya hakim olacaq, insanlar imanın sevincini, bərəkətini yaşayacaqlar. Ayələrin işarələrindən, Peyğəmbərimizin hədislərindən və böyük İslam alimlərinin sözlərindən açıq-aşkar göründüyü kimi, yaşadığımız dövr axırzamandır. Axırzamanın çətin, sıxıntılı günləri hz. İsanın (ə.s) və hz. Mehdinin (ə.s) vəsiləsi ilə bu yüzillikdə sona çatacaq, dünya yeni aydın, işıqlı dövrə girəcək. Allah'ın varlığını və birliyini ən gözəl və hikmətli şəkildə izah etmək və insanlara Qurandakı və Əsri-səadət dövründəki İslamı tanıtmaq üçün yaxın gələcəkdə qovuşacağımız aydın günlər üçün çox əhəmiyyətli bir zəmin hazırlanır. Allah'ın bu yazını gözəlliklərə vəsilə etməsini və insanların Allah'ın dininə dəstə-dəstə girdiklərini gördüyümüz günlərin tez bir zamanda gəlməsini ümid edirik. Allah'ın bu müjdəsi Quranda belə xəbər verilir:

**Allah'ın köməyi və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Alah'ın dininə girdiklərini gördükdə həmd ilə**



**Rəbbini təriflə və Ondan bağışlanma dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir. (Nəsr surəsi, 1-3)**

Digər bütün peyğəmbərlər kimi hz. Muhəmmədin (s.ə.v.) peyğəmbərliyi dövründə də demokratiya anlayışına nümunə olan bir çox hadisə yaşanmışdır. Peyğəmbərimizin (s.ə.v.) yaşadığı ərazidə müxtəlif din, dil, irq və qəbilədən olan insan birlikdə yaşayırdı. Bu cəmiyyətlərin bir yerdə hüzur və güvən içində yaşamaları və aralarına nifaq toxumu səpməyə çalışanlara mane olmaq çox çətin idi. Ən kiçik bir sözdən və ya hərəkətdən dərhal bir qrup digərinə qarşı qəzəblənib hücum edə bilirdi. Lakin Peyğəmbərimizin (s.ə.v) demokratiya anlayışı, ədalətlə hökm etməsi müsəlmanlar üçün olduğu qədər bu cəmiyyətlər üçün də hüzur və etibar mənbəyi oldu. Əsri-səadət dövründə Ərəbistan yarımadasında xristian, musəvi və ya bütpərəstlər arasında ayrı seçkilik etmədən hərkəsə ədalətlə davranılmışdır. Peyğəmbərimiz (s.ə.v) Allah'ın **"dində məcburiyyət yoxdur" (Bəqərə surəsi, 256)** ayəsinə uyğun olaraq, hər kəsə haqq din əxlaqını izah etmiş, ancaq seçimlərini etmək mövzusunu da sərbəst buraxmışdır. İslam dinində azadlığa əhəmiyyət verilmiş, heç bir təzyiq edilməmişdir.

Hər müsəlman Quran əxlaqının tələbi olaraq insanlara doğru yolu göstərməklə, onları yaxşılığa dəvət etməklə və pislikdən uzaqlaşdırmaqla məsuliyyət daşıyır. Lakin heç vaxt bir insanı özü kimi düşünməyə, özü kimi yaşamağa, özü kimi davranmağa və ya geyinməyə məcbur etməməlidir. Müsəlman doğrunu göstərir, seçimi isə qarşısındakı insana buraxır. Bu, Allah'ın Quranda **"Dində məcburiyyər yoxdur" (Bəqərə surəsi, 256)** ayəsi ilə bildirdiyi hökmdür.

Peyğəmbərimiz (s.ə.v) uca Allah'ın bu əmrinə uyğun olaraq Ərəbistan yarımadasının cənub tərəfindəki xristian nəcran xalqı ilə saziş imzalamışdır. Bu, İslam dininin demokratik sistemdəki düşüncə və inanc azadlığının əsl mənbəyi olduğunu açıq göstərir. Sazişin maddələrindən biri belədir:

Nəcranlıların və onlara xidmət edənlərin canları, malları, dinləri, ailələri, kilsələri və sahib olduqları hər şey Allah'ın və Peyğəmbərin himayəsi altına alınacaq. (Majid Khoduri, İslamda Savaş ve Barış, Fener Yayınları,



İstanbul, 1998, s. 209-210)

Peyğəmbərimizin (s.ə.v) xristian, musəvi və müşrik cəmiyyətlərlə imzaladığı Mədinə vəsiqəsi də İslamdakı demokratiya anlayışının ən gözəl örnəklərindən biridir. Fərqli inanclara sahib olan cəmiyyətlər arasında ədalətin təmin olunması və hər cəmiyyətin mənfəətlərinin qorunması üçün hazırlanan bu vəsiqə sayəsində illərlə düşmənçilik içində yaşayan cəmiyyətlərə sülh gətirilmişdir. Mədinə vəsiqəsinin əsas xüsusiyyətlərindən biri inanc azadlığının təmin edilməsidir. Bu mövzu ilə bağlı maddə belədir.

Bəni-Əfv yəhudiləri möminlərlə bərabər eyni ümmətdirlər. Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir. (Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, s.128)

Mədinə vəsiqəsinin 16-cı maddəsində isə: ***"Bizə tabe olan yəhudilər haqsızlığa məruz qalmadan və düşmənləri ilə də köməkləşmədən, kömək və dəstəyimizə haqq qazanacaqlar.*** (İbn Kesir, El-Bidaye, III/224-225; Hamidullah, El-Vesaik, No:1, s.39-44; Yrd. Doç. Dr. Orhan Atalay, Doğu-Batı Kaynaklarında Birlikte Yaşama, Gazeteciler ve Yazarlar Vakfı Yayınları, İstanbul, 1999, s.40) - deyə bildirilmişdir. Peyğəmbərimizdən (s.ə.v) sonra da səhabələri Peyğəmbərimizin (s.ə.v) sazişə əlavə etdiyi bu hökmə sadiq qalıblar və eyni hökmü Bərbəri, Buddist, Brahman və başqa inanclardan olan insanlar üçün də tətbiq ediblər. (Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, s.162-163)



Düşünən İnsan, Noyabr 2013

# İSLAMI SEVDİRMƏK ÜÇÜN QURANA UYĞUN TƏBLİĞ EDİLMƏLİDİR



Müsəlman təbliğ edərkən Qurana uyğun hərəkət etməlidir

Qurana və Rəsulullahın (s.ə.v) sünnəsinə əsasən, müsəlman din əxlaqını təbliğ edərkən, öyüd-nəsihət verərkən, İslam əxlaqının yayılması üçün cəhd edərkən:

- *Gözəl söz söyləməlidir*

Möminlər üçün danışmaq böyük ibadətdir. İman gətirənlər Allah`dan həmişə ağıl, hikmət və xeyirli danışmağı dua edib istəyərlər. Danışdıqda Rəbbimizi zikr edər, insanlara ən gözəl sözləri söyləyər, gözəl əxlaqı təbliğ edərlər:

**... Yetimlərə, yoxsullara yaxşılıq edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" ... (Bəqərə surəsi, 83)**

- *Pisliyə belə, yaxşılıqla cavab verməlidir*

Allah möminlərə pisliyə ən yaxşı rəftarla cavab verdikləri təqdirdə, xeyirli nəticə əldə edəcəklərini vəd vermişdir. Hətta qarşılarındakı şəxslə aralarında düşmənçilik olsa belə, yaxşılıqla cavab verdikdə dostluq münasibəti qurulacağına diqqət çəkmişdir.
Bu, eyni zamanda, möminlərin mərhəmət anlayışını göstərir. Qarşı tərəfin Allah`ın bəyənmədiyi şəkildə pis əxlaqla davrandığını gördükdə hər şeydən əvvəl bunun həmin şəxsin axirəti üçün təhlükəli olduğunu düşünərək, təkəbbür və qürurdan çəkinərək ona anlayışla və təvazökarlıqla yanaşar, güzəştə gedərlər. Quran əxlaqı ilə yaşamayan insanlarda olduğu kimi, "əvvəlcə, təqsirkar olan, pislik edən tərəf güzəştə getsin", yaxud "nə edir etsin" kimi məntiqlə hərəkət etməzlər. Kim gözəl əxlaqla davranarsa, Allah`ın həmin şəxsin əməlindən razı qalacağını və pisliyə məruz qaldığı halda, gözəl əxlaqla davranmağın Quran əxlaqına uyğun olduğunu bilirlər. Odur ki, güzəştə getməyin itki deyil, əksinə, böyük qazanc olduğunu düşünərək hərəkət edərlər. Ayədə belə buyurulur:

**Səbir etdiklərinə görə, onlara iki dəfə mükafat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edər və özlərinə verdiyimiz ruzidən sərf edərlər. (Qəsəs surəsi, 54)**

- *Səbirli olmalıdır*

Allah peyğəmbərlərin həyatları boyu səbir etdiyini Quran ayələri ilə bizə bildirərək bu üstün əxlaqı necə mənimsəyəcəyimizi göstərmişdir. Şübhəsiz ki, bu, inanan və Allah`a yaxınlaşmaq üçün vəsilə axtaranlara böyük nemətdir.

Quranda peyğəmbərlərin ətraflarındakı insanlara, qövmlərinə Allah`ın dinini təbliğ etdikləri xəbər verilir. Ancaq hər peyğəmbər qövmünü doğru yola dəvət etdikdə bəzi düşmənlər qazanmış, onların sözlü və ya fiziki hücumlarına məruz qalmışdır. İnkarçıların bu hərəkətləri Allah`ın elçilərini əsla ümidsizliyə salmamış, əksinə, onları həyatları boyu din əxlaqını səbir və qətiyyətlə təbliğ edərək möminlərə nümunə olmuşlar. Ayədə belə buyurulur:

**Ey iman gətirənlər! Səbir edin... (Ali-İmran surəsi, 200)**

- *Bağışlamalıdır*

Möminlər səhv etdikdə Allah`ın onlara şəfqətli olmasını, mərhəmət edib bağışlamasını istədikləri kimi, özləri də Allah`ın əxlaqını mənimsəyib digər insanlara şəfqət və mərhəmətlə davranar, bağışlayarlar. Allah bir ayədə **"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!" (Əraf**



Düşünən İnsan, Noyabr 2013

**surəsi, 199)** buyurur. Qəlbi Allah`ın zikri ilə yumşalmış mömin bağışlamalı və mülayim olmalıdır.

Allah`ın özünü bağışlamasını istəyib insanlara sərt və mərhəmətsiz davranması möminin fitrətinə uyğun deyil. Bundan əlavə, iman gətirən insan Allah`ın Quranda bildirdiyi əxlaqla yaşamaqdan geri çəkilməməlidir. Əksinə, cidd-cəhdlə Allah`ın bəyəndiyi əxlaqla yaşamalıdır.

- *Sevgi ilə rəftar etməlidirlər*

Allah`a könüldən bağlanan və Allah`ı çox sevən insan Onun yaratdığı bütün gözəlliklərə qarşı qəlbində sevgi hiss edər. Çiçək, kəpənək, quş, pişik və ya gözəl mənzərə belə bir insanın qəlbində həyəcan oyadar. Eyni şəkildə, xoşxasiyyət, gözəl insan da qəlbdə səmimi heyranlıq oyadır. Çünki insanın gördüyü hər şey Allah`ın təcəllisidir. Allah`a duyduğu coşqulu sevgi Onun sonsuz gözəlliyinin, sənətinin, ağlının və gücünün təcəlli etdiyi hər şeyə qarşı insan ruhunda təbii sevgi və məhəbbət oyadır. Odur ki, Allah`a könüldən bağlanan insanlar əsl sevgini hiss edən yeganə insanlardır.
Sevgi Allah qorxusu və Quran əxlaqı ilə yaşamaqla davamlı olur. Bu davamlılıq möminin sevgidə ömür boyu səbirli və qətiyyətli olmasını təmin edir. Sevginin təməli iman və Allah qorxusudur. Quran əxlaqına əsaslandığı və Allah rizası üçün sevdiyi üçün möminin sevgisi çox güclü və dərindir. Ayədə möminlərin sevgisinə belə diqqət çəkilir:

**De: "Mən sizdən bunun əvəzində sevgidən başqa bir şey istəmirəm". (Şura surəsi, 23)**

- *Təbliğin əvəzində heç bir mükafat istəməməlidir*

Allah`dan qorxan insan, eyni zamanda, vicdanına tabe olan və daima Quran əxlaqı ilə hərəkət edən insandır. Quranda bütün insanlara qarşılıq gözləmədən xeyirli əməllər etmək, insanlara kömək etmək əmr edilir. Bir ayədə "Yaxşılığı təmənna məqsədilə etmə!" (Müddəssir surəsi, 6) əmri ilə insana etdiklərindən dünyəvi mənfəət güdməmək əmr edilmişdir. Allah`ın bu əmrlərini yerinə yetirən və etdiklərindən dünyəvi mənfəət gözləməyən müsəlmanın yeganə məqsədi var: Allah`ın ondan razı olması, onu cənnətə layiq qul qəbul etməsi. Ayədə möminlərin dinə qarşılıqsız xidmət etməsi belə bildirilir:

**De: "Mən bunun əvəzində sizdən heç bir mükafat istəmirəm". (Ənam surəsi, 90)**

- *Davranışı, sözü, ağlı, dürüstlüyü, səmimiliyi ilə etibar qazanmalıdır*

Müsəlmanların ən əsas xüsusiy–yətlərindən biri cəmiyyətdə etibarlı insan kimi tanınmalarıdır. Möminlərin üzü elə nurlu və əsalətli olur ki, hər kəs onların üzünə baxdıqda dürüst olduqlarını anlayır. Vicdanının səsini dinləyərək bir möminlə danışan, onun söhbətində iştirak edən hər kəs möminin fərqini dərhal anlayar. Müsəlman imanından qaynaqlanan bu xüsusiyyəti ilə İslam dinini mükəmməl təbliğ edir və bu əxlaqında qətiyyətli olur. Ona əziyyət edilərsə və ya din əxlaqını təbliğ etməkdən əl çəkməsinin əvəzində böyük imkan və maddi mənfəətlər təklif olunarsa, bunu əsla qəbul etməz. Çünki Allah`ın rizasını, İslamın və müsəlmanların mənfəətini daima qətiyyətlə üstün tutmaq mömin üçün əsasdır. Ən çətin vəziyyətdə belə Allah`ın yardımına ümid bəsləyir, kimsədən qarşılıq gözləmədən din əxlaqını təbliğ edir. Müsəlmanın bu üstün əxlaqı Quranda belə təriflənmişdir:

Mən Rəbbimin vəhy etdiyi hökmlərini sizə təbliğ edirəm. Mən sizin etibarlı nəsihətçinizəm. (Əraf surəsi, 68)

- *Müsəlmanın təbliğ edərkən daima şəfqət və sevgi ilə davranması Allah`ın əmridir*

Möminlərin yanında hər cür xarakterli, hər cür düşüncəyə malik insan ola bilər. Ancaq möminlər bu insanlarla imkanları ölçüsündə bir-bir maraqlanmaqla, hər birinin qüsurlarını və səhvlərini düzəltmək üçün onlara öyüd-nəsihət verməklə, təmizliklərindən imanlarına qədər onları hər məsələdə tərbiyə etməklə məsuldurlar. Lakin bunu şəfqətlə, sevgi ilə, anlayış və səbirlə edərək bir çox insanın qəlbinin Qurana isinməsinə və Peyğəmbərimizə (s.ə.v) səmimi qəlbdən



bağlanmasına vəsilə olmalıdırlar.

**Allah`ın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allah`dan) onların bağışlanmalarını dilə... (Ali-İmran surəsi, 159)**

Unutmaq olmaz ki, insanlara qəzəblə davranmaq, bağışlamamaq, anlayışsız yanaşmaq, kömək etməmək, pis söz söyləmək bir çox cəhətdən müsəlmanın boynuna məsuliyyət qoyur. Bu cür yanaşma həm Quran və sünnəyə ziddir, həm də İslama ziyan vurur. Müsəlman dini əsla məcburiyyətlə və ya şərt qoyaraq qəbul etdirməyə çalışmaz, gözəl üslubla təbliğ edər.

Müsəlman gülər üzü, zarafatcıllığı ilə, ən çətin vaxtlarda sabitləşdirici üslubu ilə insanların sevgisini qazanar. Mömininin bu xüsusiyyətinə görə onun fikirlərinə tamamilə qarşı olan insan belə heç vaxt mömininin əxlaqı haqqında pis düşünməz. Çünki hər kəs onun şəfqətli, mehriban, nəzakətli olduğunu, insanı təcrid edən deyil, qazanmağa cəhd edən şəxs olduğunu hiss edir. Müsəlmanın digər xüsusiyyəti də İslamı sözlə təbliğ etmədikdə belə əxlaqı ilə çox gözəl təbliğ etməsidir. Bu xüsusiyyətlərinə görə, Qurana uyğun hərəkət edən müsəlman insanları dindən soyutmaz, onları təcrid etməz, kimsəyə ön mühakimə ilə yanaşmaz, hər şeydən əvvəl İslamın və müsəlmanların mənfəətini düşünər, şəxsi qəzəb hissi və qüruru ilə hərəkət etməz.



# Fosillər təkamülü təkzib edir





## Ginkqo yarpağı

Dövr: Kaynozoy erası, Paleosen dövrü
Yaşı: 65-54 milyon il
Bölgə: Sentinel Butte, Şimali Dakota, ABŞ

Bitkilər fosil qeydlərində dövrümüzdəki bitkilərə bənzər xüsusiyyətləri ilə ani surətdə üzə çıxırlar. Bu isə onların digər canlılar kimi yaradıldığını göstərir.

Şəkildəki ginkqo yarpağı fosilinin təqribən 65 milyon il yaşı var. Bu, bütün digər bitkilər kimi, ginkqoların da təkamül keçirmədiyini sübut edir. Yarpağın əsas cizgiləri və damar quruluşu fosilləşərək olduğu kimi qorunmuşdur. 12 sm boyu olan bitki ginkqoların milyon illərdir eyni olduğunu, dövrümüzdəkilərlə qədim dövrlərdə yaşayanlar arasında fərq olmadığını göstərir.









www.fosilmuzeyi.com











**Minoqa (adi ilanbalığı)**

Dövr: Paleozoy erası, Daş kömür dövrü
Yaşı: 300 milyon il
Bölgə: Meyzon Krik, Breydvud, İlinoys, ABŞ

Breydvud fosil müxtəlifliyi baxımından olduqca zəngin bölgədir. Əsasən, bölgədəki kömür yataqlarında fosillərə rast gəlinir. Şəkildəki minoqa çənəsiz balıq növüdür. Minoqalar, əsasən, dayaz sularda yaşasalar da, bəzi növləri okeanda uzun məsafələr qət edirlər.

Bu fosil təqribən 300 milyon ildir minoqaların dəyişmədiyini, yəni təkamül keçirmədiyini göstərən dəlillərdən biridir. Aradan yüz milyon illər keçməsinə baxmayaraq, minoqalar dəyişilmədən qalıblar. Dövrümüzdə yaşayan minoqalarla yüz milyon illər əvvəl yaşamış minoqalar arasında heç bir fərq yoxdur.









## Günəş balığı

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Qrin River, Vayominq, ABŞ

Dövrümüzdə günəş balıqlarının bir çox növü yaşayır. Şəkildə görünən günəş balığı fosili günəş balıqlarının təkamül prosesi keçirmədiyini göstərir. Aradan keçən milyon illər boyu günəş balığının fiziologiyasında hər hansı dəyişiklik olmadığı görünür. Bundan 55 milyon il əvvəlki günəş balıqlarının görünüşü və quruluşu müasir dövrdə yaşayan günəş balıqlarınınkı ilə eynidir.













# 700.000 il əvvəl insanların çox yaxşı inşa edilmiş gəmilərlə okeanlara səfər etdiklərini bilirdinizmi?



**Yaxud ibtidai "mağara adamı" kimi təqdim edilən insanların əslində dövrümüzdəki rəssamlardan heç də geri qalmayan qabiliyyəti və estetika anlayışı olduğunu eşitmişdinizmi?**

**80.000 il əvvəl yaşayan və təkamülçülər tərəfindən "meymun adam" kimi göstərilən neandertal irqinin musiqi alətləri düzəltdiyini, geyim zövqünə malik olduğunu, isti qumlarda gözəl səndəllərlə gəzdiyini bilirdinizmi?**



Bunların heç birini eşitməyə bilərsiniz. Əksinə, bu insanların yarı-meymun yarı-insan, danışma qabiliyyətindən məhrum, dik dura bilməyən, yalnız qırıq-qırıq səslər çıxaran, vəhşi mağara adamları olduğunu düşünə bilərsiniz. Çünki bu böyük yalan təxminən 150 ildir dünyanın hər tərəfində insanlara təlqin edilir.

Bu təlqinin məqsədi isə materialist fəlsəfəni yaşatmaqdır.

Təkamülçü tarix anlayışına görə, bəşəriyyət tarixi insanın "təkamülünə" paralel olaraq müxtəlif dövrlərə ayrılaraq araşdırılır.

Daş dövrü, tunc dövrü və dəmir dövrü təkamülçü xronologiyanın əsasını təşkil edir.

Halbuki, arxeoloji tapıntılar və elmi məlumatlar araşdırıldıqda ortaya daha fərqli mənzərə çıxır. Arxeoloji qazıntılarda tapılan alətlər, tikiş iynələri, fleyta qalıqları, bəzək əşyaları, dekorasiya vəsaitləri keçmiş insanların mədəni inkişafının göstəricilərindəndir.

İndi isə bu sivilizasiyalardan qalmış bəzi tarixi abidələrə nəzər salaq.

Misir piramidalarının hər biri təxminən 2.5 ton ağırlığında, 2.3 milyon daş blokdan ibarətdir.

Piramidaların inşasında tətbiq edilən həndəsi rəqəmlər, daşların kəsimindəki həssaslıq, piramidaların nəhəng ölçüsü və bunların inşa edildiyi dövrdəki şərait və texnologiya öyrənildikdə, həqiqətən, möcüzə olduğu açıq-aydın görünür. Piramidaların daxili arxitekturası, dəhlizlər və daha bir çox sirli nöqtələr öyrənildikdə bu möcüzələrə olan heyranlıq daha da artır.



Stounhenc çənbər formasında yerləşdirilmiş böyük daş bloklardan ibarət tikilidir. Təqribən 4.5 m hündürlüyündə, hər biri 25 ton ağırlığında 30-a qədər daş blokun birləşdirilməsindən əmələ gəlib. İngiltərədə yerləşən bu tikili bir çox tədqiqatçının diqqətini çəkir.



E.ə. 3200-cü ildə inşa edildiyi təxmin edilən Nyuqreync Dublin yaxınlığında bir mavzoleydir. Tikilinin üzərindəki qübbə bir mühəndislik möcüzəsidir. Alt tərəfləri ağır, üst tərəfləri yüngül olan monolit daşlar üst-üstə elə qoyulub ki, hər üstdəki daş altdakından bir az kənara çıxır, bu yolla tikilinin üstündə orta hissədə 6 metr hündürlüyündə altı bucaqlı baca əmələ gəlir.
Bacanın sonunda lazım gəldikdə açılıb-örtülən daş qapaq var.
Nyuqreyncin tikintisində istifadə edilən daş blokların necə daşındığı, inşaatın hansı texnika ilə həyata keçirildiyi dövrümüzdə hələ də tam aşkar edilməyib.









Bunlardan əlavə, İştar darvazası, Tiuanako şəhərindəki tikililər, İnk memarlığı, obelisklər və daha bir çox nümunələri misal göstərə bilərik.

Bu tikililər dərin bilik və təcrübəyə malik insanlar tərəfindən qabaqcıl inşaat texnikası və vasitələri ilə inşa edilmişdir. Əlbəttə, tarix boyu bir tərəfdə mədəni həyat yaşayan insanlar olduğu halda, bir tərəfdə də daha sadə və ibtidai şərtlərdə yaşayan xalqlar olub.

Ancaq bu, bəşəriyyət tarixinin “təkamülünə” dəlil deyil. Çünki müasir dövrdə də dünyanın bir tərəfində kosmosa peyklər göndərilərkən, bir başqa yerdə insanlar hələ elektrikin varlığından xəbərsizdirlər. Bunlar mədəni təkamül baş verdiyini göstərmir, sadəcə mədəniyyət fərqinin göstəriciləridir.



# Heç bir səbəb olmadan *tək qalmağı istəmək* şeytanın oyunlarından biridir

*· Şeytan qəflətə düşən insana tək qalmağı doğru göstərmək üçün hansı təlqinləri verir?*
*· Qəflətə düşənlərin tək qalmaq üçün gətirdiyi bəhanələr hansılardır?*
*· Şeytan insanın tək qalmağından hansı məqsədlər üçün istifadə edir?*
*· Mənəvi sıxıntı çəkən mömin nə etməlidir?*

Ümumiyyətlə, insanlar problemlə üzləşdiklərində tək qalmağa üstünlük verirlər. Kənara çəkilib tək qalmaq üçün yer axtarırlar. İş yerində, yaxud başqa yerdə olanda evə tələsir, dostlarının yanında olanda onlardan ayrılır, evdə olanda isə qaçıb öz otaqlarına girirlər. Adam çox olan yerdə evin, ya da iş yerinin vanna otağına, heç kimin görmədiyi yerə gedirlər. Qısası, tək qalmağa çalışırlar.

Tək qalmaq istəməyin səbəbini özləri də bilmirlər və bunun problemi həll etmədiyini dərk etmirlər. Belə vəziyyətlərdə ağıllı düşünməyi istəməmək əsas problem yaradır. Yanında başqaları olduqda hərəkətlərinə fikir verməli, məntiqli davranmalı olacaqlar. Tək qaldıqda isə bunların heç birini düşünmədən hərəkət edə biləcəklər. Beləcə, düşünməkdən qaçıb rahat olacaqlarına inanırlar.

## Tək qalma istəyi şeytanı fəaliyyətə keçirir

Əgər insan müəyyən mövzuda təfəkkür edib dərinləşmək, daha yaxşı və gözəl düşünmək üçün Allah'a sığınıb Ondan kömək diləmək və dua etmək üçün tək qalmaq istəyirsə, bu, çox normal hərəkətdir. Allah Quranın bir çox ayəsində insanlara bu əxlaqı tövsiyə etmişdir. Bu dərinliyi əldə etmək üçün mütləq tək qalmağa ehtiyac yoxdur. Amma məqsəd Allah'a yönəlmək olduğu üçün bu hərəkət normal sayıla bilər.

Onsuz da insanlar sıxıntılı vaxtlarında, nəfslərinə tabe olduqda, Quran ayələrini lazımi şəkildə düşünmədikdə və vicdanlarının səsini dinləmədikdə insanlardan qaçıb tək qalmaq istəyirlər.

Tək qaldıqda isə onlara ilk şeytan yaxınlaşır və bundan istifadə edir. Şeytan bu insanları vicdanlarından uzaqlaşdırıb nəfslərinin təsiri altına salır. Quran əxlaqına uyğun şəkildə düşünmələrinə mane olmağa çalışır. Bunun əvəzinə o insana Quran əxlaqına uyğun olmayan hərəkətlər etdirmək istəyir. Romantizm, məntiqsizlik, narahatlıq, ümidsizlik, kədər və boş xəyal kimi mənfi xüsusiyyətlərə sürükləməyə çalışır. Allah diləmədikcə bir toz dənəsinin belə hərəkət etməyəcəyini unutdurur və hadisələri insanların idarə etdiyini düşündürür. Bunun sonunda da yaxınlarına qarşı nifrət və kin oyatmaqla Quran əxlaqına uyğun olmayan hərəkətlər etməsini istəyir.

## Tək qalmaq üçün bəhanələr

**Nəzər salsaq, görərik ki, izah etdiyimiz bu xüsusiyyətlər film və seriallarda, həmçinin romanlarda tez-tez rast gəlinir. Bir çoxları qohum və ya ailəsində, yaxud da tanışlarının arasında belə insanlara rast gəlmişdir. İnsanlara verilən təlqin nəticəsində ağıllı düşünməyən, Allah'ın bildirdiyi din əxlaqından uzaq yaşayan insanlar müəyyən vəziyyətlərdə bu hərəkətlərə meyil edirlər.**

**Başqa bir cəhət də vardır ki, belə insanlar tək olduqda başqalarını bunu pozmağa icazə vermirlər. Bəzən xəstə, bəzən yuxusuz olduqlarını və bəzən də iş gördüklərini bəhanə edib mümkün qədər tək qalmağa çalışırlar.**

**Tək qalmaqda məqsədləri isə heç nə etməməkdir. Düşünməmək, ağıllı və məntiqli olmamaq, çıxış yolu axtarmamaq, nəfsani təlqinlərdən uzaqlaşmamaq, sıxıntını gizlətməklə gözəl əxlaq göstərməmək; fədakar, insanpərvər və anlayışlı olmamaq, gözəl söz söyləməmək, gözəl münasibət göstərməmək və vicdanın tələb etdiyi daha bir çox yaxşı əməldən uzaqlaşmaq...**



## Tək qalan insanı şeytan nəyə yönəldir?

Şeytanın əsl məqsədi bu insanları inkar, üsyan və qəflətə sürüməkdir. Qısa sürsə də, Allah'ın varlığını və qədəri, həmçinin ölümün və axirətin yaxınlığını unutdurmaq, insanı Quran əxlaqına uyğun olmayan düşüncəyə sürükləməkdir. Şeytan hər sıxıntıda bu insanlara belə təsir edir və bir gün tam inkar edəcəklərinə ümid edir.

Ancaq şeytan insanlara bu məqsədini açıq-aşkar göstərmir. Bunun əvəzində, faydalı olacağına inandırdığı səbəblər irəli sürür. Lakin şeytanın planı bu xeyirli düşüncələrə də mane olub insanı öz yoluna çəkməkdir. Bu zaman insanı “bir az tək qalıb düşünüm”, “indi yaxşı düşünə bilmirəm, bir az istirahət edim”, “özümü itirdiyimi başqaları görməsin, bir az özümə gəlim yanlarına qayıdaram”, “tək qalıb başıma gələn hadisələri bir az nəzərdən keçirim; səhvlərimi tapıb doğru qərar verim” kimi səbəblərlə təkliyə yönəldir.

Möminlər şeytanın bu təlqinlərinə qarşı çox diqqətli olmalıdırlar. Allah`ın insanın əxlaqını sınamaq üçün yaratdığı sıxıntı ilə qarşılaşan insan tək qalmağın doğru yol olmadığını anlamalıdır. Tək qalmaqdan çəkinib hamının yanında Quran əxlaqına uyğun davranmalıdır. Gözəl söz deyib səhvini düzəldəcəksə, bunu çəkinmədən insanların arasında etməlidir. Üzərində mənəvi ağırlıq varsa, tez Allah'a sığınmalı, Allah'ın verdiyi gözəl nemətləri düşünüb şükür etməlidir. Sıxıntının şeytandan olduğunu bilməli, Allah rizası üçün şeytanın istədiyinin tam əksinə, Quran əxlaqının tələb etdiyi kimi, şən və aktiv olmalıdır. Bu gözəl əxlaq şeytanın tələsini pozar, qəlbinə iman hüzuru verər. İnsanları sıxıntıdan xilas edən yeganə yol Allah`a sığınıb Quran əxlaqına uyğun davranmaqdır. Quranda bu həqiqət insanlara belə bildirilmişdir:

**Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allah`ın lütfündən ruzi diləyib axtarın! Və Allah`ı çox zikr edin ki, nicat tapıb səadətə qovuşasınız! (Cümə surəsi, 10)**

**O kəslər ki, Allah`a iman gətirmiş və qəlbləri Allah`ı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər yalnız Allah`ı zikr etməklə aram tapar! (Rəd surəsi, 28)**



# Bədənimizdəki Bioloji Saat



Bədənimizdə daxili saat adlandırdığımız möhtəşəm bir sistem mövcuddur. Vücud saatımızı dünyanın öz oxu ətrafında hərəkəti nəticəsində meydana gələn gecə-gündüz yerdəyişməsinə görə proqramlaşdıran bu bioloji saat sirkadian adlanır.

Uca Allah`ın sonsuz ağıl və yaratma sənətinə saysız nümunələrdən biri olan bu saat sistemi bədənimizi bütünlükdə əhatə edir. Beyinin hipotalamus hissəsində yerləşən təxminən 10 min ədəd supraxiazmatik nüvələr (suprachiasmatic nuclei – SCN) adlandırılan sinir hüceyrəsi bu saatın mərkəzini təşkil edir. SCN hüceyrələri bədənimizdəki bir çox fizioloji proseslərə nəzarət funksiyasını yerinə yetirir.

Canlılardakı sirkadian saat dörd əsas gen tərəfindən idarə edilir və bu genlər SCN sahəsindən başqa bədənin, demək olar ki, bütün toxumalarında mövcuddur.

Bioloji saat 24 saatlıq ritmik prosesdir və Rəbbimiz tərəfindən xüsusi şəkildə proqramlaşdırılmışdır. Allah Quranda bioloji saata belə diqqət çəkir:

**"Sizin üçün gecəni örtük, yuxunu rahatlıq, gündüzü də canlanma vaxtı edən Odur". (Furqan surəsi, 47)**

Bəs bədənimizdəki bioloji saat olmasaydı, bu, həyatımıza necə təsir bağışlayardı?

Bu zaman qəflətən titrəyər, yuxulayar, qan təzyiqimiz yuxarı qalxar və bunun kimi bir çox narahatlıqlarla üzləşə bilərdik. Ancaq Allah`ın bədənimizdə yaratdığı bu möcüzə sayəsində sağlam və rahat şəkildə yaşayırıq.